RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 119 (8712) CÜMƏ AXŞAMI, 10 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Cənubi Qafqazın siyasi, iqtisadi və hərbi gücü

## İlham Əliyev Azərbaycanın dövlət və milli maraqlarını inamla təmin edir

**Ötən ilin 44 günlük Qarabağ müharibəsi Cənubi Qafqazla bağlı reallıqlara yenidən və həm də əyani şəkildə aydınlıq gətirdi. Belə ki, bu savaş və onun nəticəsi bütün dünyaya praktik şəkildə nümayiş etdirdi ki, Azərbaycan yerləşdiyi regionun siyasi, iqtisadi və hərbi gücüdür. Bu Qələbə Azərbaycanın Cənubi Qafqazda lider və aparıcı dövlət kimi statusunu daha da yüksəltdi. Bütövlükdə isə ərazi bütövlüyünü bərpa etməklə respublikamız beynəlxalq miqyasda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.**

### Qətiyyətin təcəssümü

Amma hələ müharibəyə qədər də Azərbaycanın Cənubi Qafqazdakı mövqeyi beynəlxalq ictimaiyyətə məlum idi. Vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş və son 18 ildə Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilən siyasi kurs nəticəsi etibarilə respublikamızın bölgədəki dövlət və milli maraqlarını inamla təmin etmişdi.

Ondan başlayaq ki, Azərbaycan o dövlətdir ki, Xəzərin karbohidrogen ehtiyatlarını ilk dəfə alternativ yollarla dünya bazarlarına çıxarıb. Sürətlə dəyişən dünya nizamında, beynəlxalq münasibətlərdə güc amilinin özünü daha qabarıq büruzə verdiyi bir şəraitdə dünyanın enerji xəritəsinə ciddi dəyişikliklər edən neft-qaz kəmərlərinin çəkilməsi kifayət qədər çətin bir proses idi. Hazırda beynəlxalq aləmdə bu sahədə olan vəziyyət də deyilənləri təsdiq edir. Hansısa dövlətin istəyinə cavab verməməsi və ya ayrı-ayrı dövlətlərin toqquşan siyasi maraqları, beynəlxalq təşkilatların kredit ayırmaması indiyə kimi çoxlu sayda iqtisadi layihələrin ömrünü kağız üzərində yekunlaşdırıb. Amma Azərbaycan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars və "Cənub qaz dəhlizi" kimi iri enerji layihələrini qətiyyətlə reallığa çevirə bilib. Dövlətimizin təşəbbüsü ilə çəkilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında nəqliyyat əlaqələrini daha çevik və səmərəli edib.

### Bütün uğurların arxasında siyasi iradə dayanır

Əlbəttə, hər biri iqtisadi mahiyyət daşısa da, bu layihələrin həyata vəsiqə almasının arxasında siyasi iradə dayanır. Bu baxımdan sözügedən layihələrin reallaşması ilk növbədə Prezident İlham Əliyevin yürütdüyü siyasətin məzmunundan xəbər verir. Qətiyyətli və müstəqil siyasəti ilə İlham Əliyev Azərbaycanın dövlət və milli maraqlarını inamla təmin edir və qarşıya qoyulan hər vəzifə uğurla icra olunur.

Bu gün Azərbaycanın iştirakı olmadan Cənubi Qafqazda hansısa layihənin icra olunması qeyri-mümkündür. Bütün beynəlxalq layihələrin reallaşmasında söz sahibi məhz ölkəmizdir. Vətən müharibəsindəki Qələbə isə Azərbaycanın dünya nizamında rolunu əhəmiyyətli dərəcədə artırıb.

Müstəqil siyasətin və qətiyyətin nəticəsidir ki, hələ 10 il əvvəl Azərbaycan 155 dövlətin dəstəyini qazanaraq 2 il müddətində BMT Təhlükəsizlik Şurasında təmsil olunmuşdu. Hazırda respublikamız BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edir. Yüksək beynəxalq ehtiramın nəticəsidir ki, Azərbaycanın koronavirusa qarşı birgə mübarizə təşəbbüsləri güclü beynəlxalq dəstək qazanır.

Bu gün Azərbaycan Cənubi Qafqazdan beynəlxalq kosmik klubun üzvü olan yeganə dövlətdir. Orbitdə olan üç peykimiz respublikamıza iqtisadi mənfəət gətirməkdədir. Digər tərəfdən, kosmik kluba üzv olması Azərbaycanın regiondakı siyasi və iqtisadi qüdrətini şərtləndirən amillərdən biridir.

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Şimali Makedoniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, ölkənizə tərəqqi və xalqınıza rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Şimali Makedoniya Respublikasının ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əlaqələri və əməkdaşlığı daha da inkişaf etdirməyə və dərinləşdirməyə hazır olduğunu bildirirəm.

Zati-alinizə ən yüksək ehtiramımı çatdırır, Sizə xoşbəxtlik, Azərbaycan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Stevo PENDAROVSKİ,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz qardaşım.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Sizi əmin edirəm ki, ölkələrimizin qarşılıqlı mənafeyinə xidmət edən əməkdaşlığın daha da inkişaf etdirilməsi və gücləndirilməsi üçün səylərimizi qətiyyətlə artıracağıq.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə, qardaşınız*

***Məhəmməd vələd əş-Şeyx ƏL-ĞƏZVANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident.

Qardaş Azərbaycan xalqının əlamətdar milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Ölkənizə və xalqınıza daha böyük tərəqqi, rifah və firavanlıq arzulayıram.

Cibuti Hökuməti və xalqı da bu təbriklərə qoşularaq Azərbaycan xalqına rəğbət və dostluq duyğularını ifadə edir.

Fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, uzaqgörən rəhbərliyinizlə ölkənin inkişaf istiqamətlərinin şaxələndirilməsi nəticəsində əldə olunan iqtisadi dirçəliş alqışa layiqdir.

Ölkəmiz Azərbaycanla bir çox məsələlərdə həmrəydir. Qətiyyətlə inanırıq ki, xalqlarımızın firavanlığı naminə iki ölkənin strateji tərəfdaşlığını və qarşılıqlı faydalı mənafelərini dəstəkləmək əzmi də bundan qaynaqlanır.

Cənab Prezident, bir daha Sizə ən xoş arzularımı çatdırır, milli bayramınız münasibətilə qardaş salamlarımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

◆ **Müəllifi İlham Əliyevdir**

# Ağcabədidə həyat ASANlaşıb

## İlham Əliyevin ötən il açılışını etdiyi regional "ASAN xidmət" mərkəzində bir ildə 132 minə yaxın müraciətə baxılıb

Son illərdə əhalinin sosial problemlərini həll etməklə, bürokratik əngəlləri aradan qaldırmaqla vətəndaş-dövlət münasibətlərində şəffaflığı və əhalinin məmnunluğunu təmin edən "ASAN xidmət" mərkəzləri geniş çeşidli xidmətlərin göstərilməsi missiyasını uğurla davam etdirməkdədir.



Bu isə müasir Azərbaycanın brendinə çevrilən və yaradıldığı gündən fəaliyyətini "vahid məkan" prinsipi əsasında quran Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzlərinin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə sadiqliyini bir daha təsdiqləyir.

### Operativliyin və şəffaflığın ünvanı

Agentliyin missiyası fəaliyyət istiqamətlərinə uyğun olaraq, dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin təşkilində müasir innovativ texnologiyaların və metodların tətbiqi ilə vətəndaş məmnunluğuna nail olmaqdır.

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılan və 2013-cü ildə 5 mərkəz, 2 səyyar avtobusla xidmətə başlayan "ASAN xidmət" 2021-ci ildə 20 xidmət mərkəzi, 1 qatar və 10 səyyar avtobusla fəaliyyətini davam etdirir. Əgər fəaliyyətə başlayanda 20 xidmət təqdim edilirdisə, bu gün dövlət orqanları, özəl şirkət, müəssisələr vətəndaşlara ümumilikdə 320-yə yaxın xidmət göstərir.

"ASAN Həyat" kompleksləri vətəndaş rahatlığının təmini üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət göstərən müxtəlif sahələri əhatə edir və insanlar tərəfindən olduqca xoş qarşılanır. Bu komplekslərdə "ASAN xidmət" mərkəzi ilə yanaşı, istirahət üçün park, kinoklub, intellektual əyləncə obyektləri də yaradılır. Ötən ilin iyun ayının 3-də Prezidentin açılışını etdiyi Ağcabədi "ASAN Həyat" kompleksində də belə təkmil imkanlar mövcuddur. Keçən il iyun ayının 16-da burada fəaliyyətə başayan Ağcabədi "ASAN xidmət" mərkəzi bir ildir ki, vətəndaşlara yüksəksəviyyəli, şəffaf xidmət göstərməkdədir.

*Ardı 5-ci səh.*

◆ **Yazıçı və həyat**

# ŞUŞANIN GÜNƏŞİ

**Şuşa ucadadır!..**
**Dualarımızla qoşadır!..**
**Şuşa ucadır və dualarımız eşidiləndir...**

*"Xarıbülbül" festivalını izlədikcə, Azərbaycanda yaşayan müxtəlif xalqlara aid musiqi nümunələrini, rəngarəng ifaları göz dolusu seyr etdikcə, bu Vətəndə yaşayan və eləcə də, dünyanın harasında yaşayır-yaşasın, qəlbi Azərbaycanla döyünən bütün həmvətənlərimizi tək-tək sinəmə sıxmaq istəyirdim. Onları nə qədər sevdiyimi çatdırmaq, yurda və cahana sülh, tolerantlıq, multikulturalizm, insana sevgi dəyəri üzərində bərqərar olan bu mənəvi böyüklük qarşında səcdəyə getmək istəyirdim.*

**İnsanı yaşadanlar, insanı sevənlər, insanlıq üçün qurub yaradanlar bir Günəş altında birləşmişdi.**

*Həmin gün Şuşa günəşinin şəfəqləri bütün dünya azərbaycanlılarına çatırdı, Azərbaycanı sevən hər kəsi isindirirdi.*

**AZƏRBAYCANI, QARABAĞI, ŞUŞANI sevənlərin hər birinə bu nurdan, hərarətdən pay düşürdü...**

**Qəlbim atlanır, Prezidentimə, Ali Baş Komandana minnətdarlıq hissi ilə ucadan səslənmək istəyirəm...**

**Şuşa! Səni yol-rizinlə, otun- çiçəyinlə, dağ-dərənlə, havanla, suyunla və... bu odlu günəşinlə bir yerdə bizə geri qaytaran və bizə bəxş eləyən odur - Müzəffər Ali Baş Komandan İlham Əliyev!..**

**Sağ olun, Cənab Prezident!**
**Bizi Şuşaya qaytardığınıza görə...**
**Bizi Şuşaya gətirdiyinizə görə...**
**Vətənimizin incisi - Şuşanı bizə qaytardığınıza görə!..**

*Bax: səh. 4*

# Yükdaşımada problem yoxdur

## Bu, həm də ölkəmizin nəqliyyat qovşağına çevrilməsinin nəticəsidir

**Son illər Azərbaycanda mükəmməl və çoxşaxəli nəqliyyat infrastrukturu yaradılıb. Avtomobil yolları şəbəkəsi ildən-ilə genişlənir. Hava və dəniz nəqliyyatı getdikcə inkişaf edir. Azərbaycan həm də digər regionların, ölkələrin yollarını bir-biri ilə qovuşduran məkana, nəqliyyat qovşağına çevrilib.**



Başqa sözlə, açıq dənizlərə çıxışı olmayan ölkəmiz indi Avrasiyanın nəqliyyat mərkəzlərindən biridir. Bütün bunların nəticəsidir ki, pandemiya dövründə də nəqliyyat ahəngdar fəaliyyət göstərib, yüklər mənzil başına vaxtında çatdırılıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 62,4 milyon ton yük daşınıb. Yüklərin 55,4 faizi avtomobil, 7,8 faizi dəmir yolu, 3,2 faizi dəniz, 0,2 faizi hava nəqliyyatı, 33,4 faizi isə boru kəməri ilə daşınıb.

Dəniz limanlarında da işlər rəvan gedir. Belə ki, ilin ilk 4 ayında dəniz limanlarında 3 milyon 159,4 min ton həcmində yükləmə-boşaltma əməliyyatları həyata keçirilib. Bu yüklərin 3 milyon 42,1 min tonunu və ya 96,3 faizini tranzit yüklər təşkil edib. Mayın 1-nə limanlarda qalan yüklərin həcmi 78,4 min ton olub.

Yeri gəlmişkən qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanması (DND) "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə 2020-ci ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının keçirdiyi müsabiqənin qalibləri arasında yer alıb.

ASCO-nun bütün strukturlarında olduğu kimi, DND-də də sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması mühüm məsələlərdəndir. İşçilərin fərdi mühafizə vasitələri ilə təminatına, normal iş şəraitinin yaradılmasına, istehsalatda bədbəxt hadisələrin baş verməməsinə, təhlükəsizlik qaydalarına və əmək münasibətləri sahəsində qanunvericiliyə əməl olunmasına hər zaman ciddi nəzarət edilir və bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir.

Koronavirus dövründə Azərbaycanda dəmir yolu ilə yükdaşımalar da ləngiməyib. Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib.

*Ardı 8-ci səh.*

# Söz qatilləri

*O gün Sirac və Məhərrəmlə birlikdə Kəlbəcərə, Susuzluğa gedirdik...*

*Yaşıllığa bürünən dağların arası ilə qıvrıla-qıvrıla uzanan kələ-kötür yolda aram-aram irəliləyən nəhəng "Kamaz"ın pəncərəsindən sağa-sola baxırdıq...*

*Viranə evlər, sökülmüş yurdlar, dağılmış ocaqlar bir-bir köçürdü nəmli gözlərimizə...*

*Bir də... foto və kameraların yaddaşına...*
*Biz gedirdik...*
*Nə yaman uzanmışdı bu yol?..*
*Sanki əbədiyyətin özünə, sonsuzluğa gedirdi...*

❖ ❖ ❖

Aman Allah, qəfildən dağlar da, adda-budda bitən kollar, ağaclar da, lap uzaqdan görünən topa-topa çəhrayı buludlar da bir-birinə qarışdı, dünya qap-qara torpaq rənginə çevrildi...

Yavaş-yavaş qara torpaq qırmızı dona büründü...
Hər şey susdu, məkan itdi, zaman dayandı...
Yolun sonu gəldi, yol burada qırıldı, bitdi...

Yenidən, təkrar, bir daha həmin "Kamaz"a oturduq, yenə o yolla getdik və hər dəfəsində də yol qıvrıla-qıvrıla uzanan əfi ilana çevrilib o yerə çatanda bizi sancdı...

Hər dəfəsində də biz hamımız geri döndük, Siracla Məhərrəmsə orada qaldı...

*Ardı 5-ci səh.*

## Xaçmaz, Quba, Qusar və Şabran rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xaçmaz, Quba, Qusar və Şabran rayonlarının əhalisi 17346 nəfər olan 13 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 13 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 910,0 (doqquz yüz on) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 9 iyun 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 iyun tarixli Sərəncamına Əlavə*

## Xaçmaz, Quba, Qusar və Şabran rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Xaçmaz | 5 | Aslanoba kəndi | 381 |
| | | | Çaxmaqlı kəndi | 163 |
| | | | Ləcət kəndi | 2292 |
| | | | Müşkür kəndi | 1877 |
| | | | Yeni Həyat qəsəbəsi | 3903 |
| 2. | Quba | 3 | Dağlı kəndi | 1747 |
| | | | Susayqışlaq kəndi | 609 |
| | | | Vladimirovka kəndi | 3419 |
| 3. | Qusar | 3 | Avaranqışlaq kəndi | 564 |
| | | | Bədirqala kəndi | 873 |
| | | | Nəcəfkəndoba kəndi | 120 |
| 4. | Şabran | 2 | Padar kəndi | 586 |
| | | | Sincanboyad kəndi | 812 |
| **Cəmi:** | | **13** | **13** | **17 346** |

## *Bakir İZETBEQOVİÇ:* "Ağdamda bu cür dəhşətli mənzərə ilə qarşılaşacağımı gözləmirdim"



"Ağdamda bu cür dəhşətli mənzərə ilə qarşılaşacağımı gözləmirdim. Mən Ağdam şəhərini görəcəyimi düşünürdüm. Amma burada şəhər yoxdur. Qəbirlər qazılıb, məscid təcavüzə məruz qalıb. Bu dağıntılardan da məlumdur ki, şəhəri işğal edənlərin məqsədi burada yaşamaq olmayıb".

AZƏRTAC xəbər verir ki, bu sözləri işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri zamanı jurnalistlərə açıqlamasında Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının sədri Bakir İzetbeqoviç bildirib.

O, Ağdamın yenidən qurulacağına əminliyini ifadə edərək deyib: "Şükür Allaha ki, Azərbaycan Ordusu qələbə qazandı. İndi əsas hədəf bu əraziləri yenidən qurmaqdır. Azərbaycan Ağdamı əvvəlki kimi gözəl bir yerə çevirəcək. Mən buna əminəm. Bu hadisələr Bosniyadakı hadisələrə çox oxşayır. Bir zamanlar Bosniyanın paytaxtı da bu vəziyyətə salınmışdı. Onlar da qəbirləri qazaraq şəhidləri çıxarırdılar. Bosniya və Azərbaycan xalqlarının daha bir ortaq cəhəti də odur ki, hər iki xalq sülh arzulayır. Hər iki xalq dağıtmaq yox, yenidən qurmaq istəyir, əlaqələri inkişaf etdirmək, mehribançılıq istəyir. Mən Azərbaycan xalqını və rəhbərliyini bu qələbə münasibətilə təbrik edirəm".

# Azərbaycanla Bosniya və Herseqovina arasında əməkdaşlıq dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır

**İyunun 9-da Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanda rəsmi səfərdə olan Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının sədri Bakir İzetbeqoviçlə görüşüb.**



Əvvəlcə qonaq Milli Məclisin inzibati binasında yaradılan şəraitlə tanış olub.

Sonra tərəflər arasında görüş keçirilib. Görüşdə iki ölkə arasında əlaqələrin səviyyəsindən razılıq bildirilib, bir çox sahələri əhatə edən əməkdaşlığımızın genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanla Bosniya və Herseqovina arasında əlaqələrin inkişaf etdiyini, ölkələrimiz arasında əməkdaşlığın dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığını bildirib. Qeyd olunub ki, bu səfər iki ölkə arasında münasibətlərin inkişafına töhfə verəcək.

Azərbaycanla Bosniya və Herseqovina arasında mövcud olan müqavilə-hüquqi bazanın bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını bildirən spiker S.Qafarova xüsusilə humanitar sahədə həyata keçirilən layihələrin xalqlarımız arasındakı dostluq əlaqələrinin inkişafına xidmət etdiyini bildirib. O, bu sahədə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə vurğulayıb.

Milli Məclisin sədri bir neçə il bundan əvvəl Bosniya və Herseqovina Parlament Məclisinin Xalqlar Palatasında Ermənistanın Azərbaycana təcavüzü və Xocalı soyqırımına dair sənəd - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tanınması və hörmət olunmasına dair qətnamə qəbul olunduğunu xatırladaraq bildirib ki, bu ədalətli sənədin qəbulu ölkəmizdə yüksək qiymətləndirilir.

Görüşdə Milli Məclisin sədri Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı Zəfər haqqında qonağa məlumat verərək deyib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində Ermənistanın 30 illik işğalına son qoyulub. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü yerinə yetirərək ərazi bütövlüyünü bərpa edib. Spiker Sahibə Qafarova Dağlıq Qarabağ münaqişəsinin artıq tarixə qovuşduğunu vurğulayaraq hazırda işğaldan azad olunan ərazilərimizdə bərpa və quruculuq işlərinə başlandığını bildirib.

O qeyd edib ki, Ermənistan 30 il işğal altında saxladığı şəhər və kəndlərimizi, tariximizə və mədəniyyətimizə aid abidələri dağıdıb, milli sərvətlərimizi talan edib, dini abidələrimizi, məscidlərimizi təhqir edib, həmin ərazilərin infrastrukturu tamamilə məhv edilib. Sahibə Qafarova qonağın diqqətinə çatdırıb ki, Ermənistan bu gün də təxribatçı əməllərindən əl çəkmir. Belə ki, müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə çoxlu sayda hərbçi və mülki vətəndaşımız Ermənistan tərəfindən quraşdırılmış minalara düşüb. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozaraq hərbi cinayətləri ni davam etdirir. Spiker iyunun 4-də 3 nəfər azərbaycanlının öz xidməti fəaliyyətini yerinə yetirərkən minaya düşərək həlak olmaları faktını xatırladaraq əlavə edib ki, onlardan ikisi jurnalistdir. Milli Məclisin sədri həmçinin bildirib ki, Ermənistan sərhədlərin delimitasiyası məsələsində də təxribatlara əl atır, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarını kobud şəkildə pozaraq azad olunmuş ərazilərimizə terrorçu qruplar göndərməkdə davam edir və bu bəyanatın imzalanmasından sonra Azərbaycan ərazilərində həbs olunmuş terrorçuları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır.

İki ölkənin qanunverici orqanları arasında münasibətlərdən danışan sədr Sahibə Qafarova bu əlaqələrin inkişaf etdirilməsi və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd edib, beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlığın vacibliyini vurğulayıb.

Parlamentin spikeri həmçinin Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri, bu layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı vacib rol, ölkəmizin multikulturalizm siyasəti və digər məsələlər barədə qonağa məlumat verib.

Səmimi görüşə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının sədri Bakir İzetbeqoviç Azərbaycana səfərindən məmnun qaldığını bildirib. O, ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək Bosniya və Herseqovinanın Azərbaycanla əlaqələrin daha da dərinləşməsində maraqlı olduğunu vurğulayıb. Bildirilib ki, yüksəksəviyyəli siyasi əlaqələrimiz iqtisadi, mədəni, humanitar sahələrə də öz müsbət təsirini göstərir.

Bakir İzetbeqoviç 2012-ci ildə Bakıda səfərdə olduğunu xatırladaraq bu illər ərzində ölkəmizin dinamik inkişaf etdiyini söyləyib. Qonaq daha sonra Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsindən məmnunluğunu bildirərək qeyd edib ki, ölkəmiz bununla da ədaləti bərpa edib. Bakir İzetbeqoviç deyib ki, ölkəmizə rəsmi səfəri çərçivəsində dünən Ağdam şəhərinə səfər edib. O, şəhərdə Ermənistan tərəfindən törədilən dağıntıları öz gözləri ilə gördüyünü vurğulayıb və ümid etdiyini bildirib ki, ölkəmizə növbəti səfərində Ağdamın tamamilə yenidən qurulduğunun şahidi olacaq.

O, həmçinin ölkəsində görülən işlər barədə də Milli Məclisin sədrinə məlumat verib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda "Türk dünyasının dünəni, bu günü və gələcəyi" mövzusunda simpozium keçirilib

İyunun 9-da Bakıda "Türk dünyasının dünəni, bu günü və gələcəyi" mövzusunda beynəlxalq simpozium keçirilib.

AZƏRTAC xəbər verir ki, TÜRKPA, Milli Məclis və Azərbaycanda Atatürk Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən simpozium İkinci Qarabağ müharibəsində ölkəmizin Zəfəri, türkdilli dövlətlərin müstəqilliklərinin 30-cu və Türkiyə Böyük Millət Məclisinin 100-cü ildönümlərinə həsr olunub.

Hibrid formatda (fiziki və onlayn iştirak) təşkil edilən tədbirdə üzv ölkələrdən parlamentarilər, Türk əməkdaşlıq təşkilatlarının rəhbərləri, səfirlər və üzv ölkələrin aparıcı universitetlərinin nümayəndələri iştirak ediblər.

TÜRKPA-nın fəaliyyətdə olan sədri, Milli Məclisin sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop simpoziuma videomüraciət ünvanlayıblar.

Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin deputatı Nizami Cəfərov bildirib ki, türk dünyasının 2020-ci ildə ən böyük uğuru Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfər oldu. Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, bu Qələbə, bu Zəfər bütün türk dünyasının Zəfəridir. Mərkəzin rəhbəri qeyd edib ki, zaman bizim xeyrimizə işləyir. Azərbaycanın Zəfəri yeni reallıqlar yaradıb. Zəngəzur dəhlizi türk dövlətləri arasında əlaqələrin daha da dərinləşdirilməsində mühüm rol oynayacaq.

O qeyd edib ki, simpoziumun Mustafa Kamal Atatürkün irsinin öyrənilməsi məqsədilə yaradılan mərkəzdə keçirilməsi təsadüfi deyil. Məqsəd bu irsin öyrənilməsini davam etdirməkdir.

2020-ci və 2021-ci illərin türkdilli dövlətlər üçün mühüm hadisələrlə əlamətdar olduğunu vurğulayan TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov simpozium iştirakçılarının diqqətinə çatdırıb ki, biz İkinci Qarabağ müharibəsində Azərbaycanın Zəfərini, türkdilli dövlətlərin müstəqilliklərinin 30-cu, Türkiyə Böyük Millət Məclisinin isə 100-cü ildönümlərini qeyd edirik. Bunlar çox böyük tarixi hadisələrdir.

TÜRKPA-nın Baş katibi vurğulayıb ki, Azərbaycanın Zəfəri bütün türk dünyasının Qələbəsidir. Biz bununla fəxr edir və qürur duyuruq. Ötən 30 ildə türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndiyini qeyd edən A.Mamayusupov bu baxımdan siyasi, sosial-iqtisadi və mədəni sahələrdə əlaqələrin möhkəmləndirilməsində Türk əməkdaşlıq təşkilatlarının mühüm rolunu vurğulayıb. O, ölkələrimiz arasında mövcud olan sıx dostluq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminliyini bildirib.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov vurğulayıb ki, türkdilli dövlətlər arasında siyasi, iqtisadi, mədəni sahələrdə və parlamentlərarası əlaqələrin inkişafı və daha da dərinləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Türkdilli dövlətlərin 1990-cı illərdən sonra böyük inkişaf yolu keçdiyini qeyd edən Düsen Kaseinov bildirib ki, ölkələrimiz arasında əməkdaşlıq üçün münasibətlərin genişləndirilməsi vacibdir. Onun sözlərinə görə, TÜRKSOY-un yaradılması da məhz bu məqsədə xidmət edir. Türkdilli dövlətlər arasında dostluq əlaqələrinin yaranmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin rolunu xüsusi qeyd edən Düsen Kaseinov qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər hamımızın Qələbəsidir. Müstəqilliyimiz daimi olsun.

Şərqdə ilk demokratik respublikanın məhz Azərbaycanda yarandığını qeyd edən Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli ölkələrimizin müstəqillik tarixindən danışaraq deyib: "Müstəqilliyimiz bizim üçün hər şeydir. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadənin dediyi kimi, "Bir kərə yüksələn bayraq bir daha enməz". 2021-ci il çox uğurlu ildir. Bu il Türkiyə Cümhuriyyətinin Dövlət Himni olan İstiqlal marşının yazılmasından 100 il ötür".

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfərindən danışan Beynəlxalq Türk Akademiyasının prezidenti vurğulayıb ki, türkdilli dövlətlər arasında mədəniyyət və təhsil sahələrində başlayan əməkdaşlıq daha geniş müstəviyə adlayıb. Onun sözlərinə görə, proseslərin gedişi onu göstərir ki, əlverişli məkanda yerləşən türkdilli dövlətləri çox böyük gücə malikdirlər. Bildirib ki, türkdilli dövlətlərin gələcək taleyi parlaq, müstəqilliyi isə əbədidir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxışında bildirib ki, bu il türkdilli dövlətlərin müstəqilliyinin 30 ili tamam olur. Türkdilli dövlətlər müstəqilliklərinin 30-cu ilinə Azərbaycanın Qarabağ müharibəsində qazandığı Zəfərlə daxil oldu. Qarabağ Zəfəri bütün türk dünyasını bir-birinə daha da yaxınlaşdırdı. Biz bunu 44 günlük Vətən müharibəsində də gördük. Türkdilli dövlətlər həmrəylik göstərərək Azərbaycanın yanında oldular.

Günay Əfəndiyeva bu il həm də bütün türk dünyasının şairi, dahi mütəfəkkir Nizami Gəncəvinin 880 illik yubileyinin qeyd olunduğunu diqqətə çatdırıb. Bildirilib ki, Nizaminin "Xəmsə"si digər türk xalqları üçün sənət xəzinəsidir.

TÜRKPA-nın komissiya sədri, türkiyəli deputat İsmet Uçma ötən 30 ildə türkdilli ölkələrdə inkişaf və təqdirəlayiq nailiyyətləri qeyd edərək ölkələrimiz arasında əməkdaşlıq perspektivlərindən danışıb. Onun sözlərinə görə, türkdilli ölkələrin əldə etdiyi nailiyyətlərdə, əlaqələrin möhkəmlənməsində türk institusional əməkdaşlığının rolu xüsusi qeyd olunmalıdır. Qeyd olunub ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da inkişaf edəcək.

Sonra tədbirdə Azərbaycan və Türkiyənin parlament sədrlərinin videomüraciətləri nümayiş etdirilib.




Milli Məclisin sədri, TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarova simpoziuma videomüraciətində türkdilli dövlətlərin parlament üzvlərini, elm və siyasət adamlarını bir araya gətirmiş bu mühüm tədbirə uğurlar arzulayıb. O, simpoziumda aparılacaq fikir mübadiləsinin türk dünyasının dünəni, bu günü və gələcəyi haqqında ümumi baxışların formalaşmasına kömək edəcəyinə inam ifadə edib. Spiker bildirib ki, tarix boyu türkdilli xalqlar bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr veriblər. Dünyanın böyük hissəsinə yayılan xalqlarımız vahid sivilizasiya əlamətlərini qoruyub saxlayıb, onları birləşdirən ortaq dəyərləri daha da zənginləşdiriblər. Çoxsaylı türk dövlətləri xalqlarımızın yaradıcılıq enerjisindən və zəkasından güc alaraq yüksəlib.

Videomüraciətində Sahibə Qafarova XX yüzilliyin 70 ili ərzində qardaş Türkiyə Cümhuriyyətinin yeganə müstəqil türk dövləti olduğunu vurğulayıb. Qeyd edib ki, bu dövlət türk xalqının Qurtuluş savaşında göstərdiyi fədakarlığın, verdiyi böyük qurbanların sayəsində qurulub. Türk xalqının müqəddəratını müəyyən etmiş bu tarixi Zəfərdə Türkiyə Böyük Millət Məclisinin müstəsna rolunu bir daha xatırladan Azərbaycan parlamentinin sədri deyib ki, məhz bunun nəticəsi olaraq Böyük Millət Məclisi "Qazi Məclis" ünvanını alıb. Əminliklə bildirilib ki, 100 yaşlı Türkiyə Böyük Millət Məclisi indiyədək türk xalqına böyük xidmətlər göstərib və bundan sonra da hələ çox xidmətlər göstərəcək.

Uzun illər ərzində Türkiyə Cümhuriyyətinin dünyanın müxtəlif bölgələrində yaşayan qardaş xalqlar üçün cazibə mərkəzi olduğunu qeyd edən Milli Məclisin sədri deyib ki, XX əsrin sonlarında - 30 il əvvəl Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan dövlət müstəqilliklərini bərpa ediblər. Beləliklə, bu gün qədim türk dövlətlərinin varisi olan 6 müstəqil cümhuriyyətimiz var.

Sahibə Qafarova Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türkdilli Ölkələrin Parlament Assambleyası, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası və digər təşkilatların xalqlarımızın mütəşəkkil bir qüvvə kimi formalaşmasında mühüm rol oynadığını vurğulayıb. Bildirib ki, tarix türk dövlətlərinin qarşılıqlı dəstəyinin nələrə qadir olmasına dair hadisələrlə zəngindir, ötən ilin sonlarında qardaş Türkiyənin mənəvi və siyasi dəstəyi ilə Azərbaycanın 30 ildən bəri erməni işğalında olan torpaqlarını hərbi-diplomatik vasitələrlə azad etməsi bunu bir daha sübuta yetirdi. O qeyd edib ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfər qazanması və ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi bütün türk dünyasına qürur verən hadisə oldu.

Sahibə Qafarova bu böyük Qələbənin önəmli nəticələrindən biri kimi, ölkələrimiz arasında birbaşa bağlantı quracaq Zəngəzur dəhlizinin inşası üçün tarixi imkan yaranmasına diqqət yönəldib. Deyib ki, indiyədək bölgədə uğurla həyata keçirilmiş transmilli enerji-nəqliyyat layihələri ilə birlikdə bu dəhliz türk dövlətləri arasında iqtisadi əməkdaşlığın güclənməsi üçün tamamilə yeni perspektivlər açacaq.

Müraciətinin yekununda xoş diləklərini çatdıran Milli Məclisin sədri Sahibə Qafarova qurduğumuz dövlətlərin möhkəm və əbədi olmasını arzulayıb. Simpozium iştirakçılarını türk dünyasının xoşbəxt gələcəyi naminə bizə vəsiyyət edilmiş dil, əqidə və əməl birliyini daim möhkəmləndirməyə, hər sahədə bir-birimizə dəstək verməyə çağırıb.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop videomüraciətində türkdilli dövlətlərin müstəqilliklərinin 30-cu ildönümünü və Türkiyə Böyük Millət Məclisinin 100-cü ildönümünü qürurla qeyd etdiklərini, İkinci Qarabağ müharibəsində Azərbaycanın böyük Zəfərindən iftixar duyduqlarını vurğulayıb. Deyib ki, türk dövlətləri arasındakı həmrəyliyin gündən-günə möhkəmlənməsi, işbirliyinin daha da güclənməsi bizlər üçün iftixar mənbəyidir. Hamımız Asiyadan Avropayadək insanlığa ədalət, təvazökarlıq və birlik anlayışını gətirən nəsillərin mirasçılarıyıq. Xalqlarımız arasındakı tarixi bağlardan söz açan TBMM-in sədri Mustafa Şentop ortaq dil, din, mədəniyyət kimi amilləri önə çəkib. Siyasətdən iqtisadiyyata, müdafiədən diplomatiyaya, təhsildən mədəniyyətə, turizmdən enerjiyədək bütün sahələrdə birlik və həmrəylik çərçivəsində olmaq zərurətini vurğulayıb.

Azərbaycan Atatürk Mərkəzində keçirilən beynəlxalq simpoziumun türkdilli dövlətlər arasındakı münasibətlərin, əməkdaşlığın genişlənməsinə töhfə verəcəyini qeyd edən Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı deyib: "Gücümüz birliyimizdədir, biz gücümüzü birliyimizdən alırıq".

Səfir vurğulayıb ki, Qarabağ Zəfəri yeni məqsədlər uğrunda mübarizənin başlanğıcıdır. "Azərbaycan 30 ilə yaxın müddətdə işğaldan əziyyət çəkdi. Sonda Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Türkiyə də ona siyasi və mənəvi dəstək verdi. Qardaş ölkənin Zəfərindən sonra regionda yeni reallıqlar yaranıb", - deyə diplomat bildirib. Diqqətə çatdırılıb ki, türk dövlətlərinin bütün sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələri də yüksək səviyyədə inkişaf edir.

Açılış mərasimi başa çatdıqdan sonra simpozium işini 3 paneldə davam etdirib.

"Müstəqilliklərinin 30-cu ildönümündə türkdilli dövlətlər və parlamentlərin rolu" mövzusunda birinci panelə Milli Məclisin deputatı Cavanşir Feyziyev moderatorluq edib.

Birinci paneldə Qazaxıstanın deputatı Sautbek Abdrahmanov (videokonfrans formatında), Qırğızıstanın deputatı Baktıbek Raymkulov, Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov, Qırğızıstanın Azərbaycandakı müvəqqəti işlər vəkili Muxamed Lou, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, Türkmənistanın Azərbaycandakı səfiri Mekan İşanquliyev, Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi mövzu ətrafında çıxış ediblər.

Sonra söz elm adamlarına verilib. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, Akademik E.A.Buketov adına Karaqanda Universitetinin rektoru professor Nurlan Dulatbekov (videokonfrans formatında), Qırğız Respublikası XİN-in Diplomatiya Akademiyası rektorunun müavini professor Zainidin Kurmanov (videokonfrans formatında) ortaq türk dili və əlifbasının yaradılması, ortaq türk terminologiyası və sair kimi bir sıra mühüm məsələlərdən bəhs ediblər.

Birinci panelin yekununda ailə fotosu çəkdirilib.

Fasilədən sonra simpozium işini növbəti panellərdə davam etdirib. "İkinci Qarabağ müharibəsində Azərbaycanın şanlı Zəfərinin türk dünyası üçün önəmi" mövzusunda ikinci panelə Milli Məclisin deputatı Hikmət Babaoğlu, "Milli suverenliyin təzahürü olaraq TBMM və İstiqlal Marşının qəbulu" mövzusunda üçüncü panelə Milli Məclisin deputatı Sədaqət Vəliyeva moderatorluq ediblər.

Panellərdə türkdilli ölkələrin tanınmış elm adamları, ictimai-siyasi xadimləri və deputatları, o cümlədən Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli çıxış ediblər.

Simpoziumu tədbirin təşkilatçıları yekunlaşdırıblar.

# Nazirlər Kabinetində “Avro-2020”nin oyunlarına hazırlıq işləri müzakirə olunub




Futbol üzrə Avropa çempionatının final mərhələsinin Bakı şəhərində keçiriləcək dörd oyununun təşkili ilə bağlı iyunun 9-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə videokonfrans formatında müşavirə keçirilib. Nazirlik Kabinetindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə hazırlıq işlərinə dair məruzələr edilib və müvafiq tapşırıqlar verilib.

# İsrail şirkətləri azad olunmuş ərazilərimizin bərpasında iştirakda maraqlıdır

İsrail şirkətləri azad olunmuş ərazilərimizin bərpasında iştirak etməkdə maraqlıdır.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov İsrailin Xarici İşlər Nazirliyinin MDB və Asiya ölkələri üzrə iqtisadiyyat departamentinin direktoru Mixael Lotemlə görüşüb. M.Cabbarov Azərbaycan-İsrail siyasi və iqtisadi münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə göstərdiyi dəstəyə, humanitar səylərə görə təşəkkürünü bildirib. Görüşdə Azərbaycan-İsrail uğurlu iqtisadi əməkdaşlığı, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində İsrail şirkətlərinin fəaliyyəti vurğulanıb.

Qeyd edilib ki, iqtisadi əlaqələrin inkişafında Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın, İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının fəaliyyəti önəmlidir.

İqtisadiyyat naziri Azərbaycanla İsrail arasında işğaldan azad olunmuş ərazilərimizin bərpası, enerji, səhiyyə, rəqəmsallaşma, investisiya, innovasiyalar, İKT, kənd təsərrüfatı, su sektorunun idarə edilməsi, turizm və sair sahələrdə əməkdaşlıq üçün böyük potensialı vurğulayıb.

İsrailin Xarici İşlər Nazirliyinin MDB və Asiya ölkələri üzrə iqtisadiyyat departamentinin direktoru M.Lotem ölkələrimiz arasında əlaqələrin genişlənməsinin əhəmiyyətini qeyd edib, İsrail şirkətlərinin azad olunmuş ərazilərimizin bərpasında iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

İsrailin Azərbaycandakı səfiri Corc Dikin də iştirak etdiyi görüşdə ikitərəfli iqtisadi tərəfdaşlığın inkişafı və qarşılıqlı maraq doğuran məsələlər barədə müzakirələr aparılıb.

# *ABŞ Dövlət katibinin köməkçisi:* “Azərbaycan güclü tərəfdaş ölkədir”

İyunun 9-da xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Rikerlə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycanla ABŞ arasında mövcud olan tərəfdaşlıq münasibətlərinin strateji xarakterini vurğulayıb və qarşılıqlı səfərlərin bu münasibətlərin inkişafına müsbət təsir göstərdiyini qeyd edib.

ABŞ rəsmisi Filip Riker Azərbaycanın güclü tərəfdaş ölkə olduğunu qeyd edib və ABŞ-ın ikitərəfli münasibətlərə önəm verdiyini vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti ilə telefon danışığına məmnunluqla istinad edib. F.Riker ABŞ-ın regional maraqlarını və bölgədə mövcud çağırışların cavablandırılmasına yardımçı olmaq istəyini ifadə edib. Azərbaycan ilə Ermənistan arasında hərbi əməliyyatların dayandırılmasına dair razılığın əldə olunmasını müsbət qiymətləndirən ABŞ rəsmisi, eyni zamanda, bölgədə baş verən son hadisələr, o cümlədən sərhəd məntəqəsində yaşanan gərginlik ilə bağlı narahatlığını ifadə edib. O, həmçinin bu yaxınlarda iki jurnalist və bir rəsmi şəxsin mina partlayışı nəticəsində dünyasını dəyişməsi ilə əlaqədar təəssüfünü ifadə edib. F.Riker mövcud gərginliyin aradan qaldırılması üçün ABŞ-ın yardımçı olmaq istəyini vurğulayıb və ATƏT-in Minsk qrupunun həmsədri qismində səylərə istinad edib.

Nazir Ceyhun Bayramov münaqişə sonrası bölgədə mövcud olan vəziyyət, Azərbaycanın vəziyyətin gərginləşdirilməsində maraqlı olmaması, üçtərəfli bəyanatın icrası ilə əlaqədar tərəfimizdən atılmış addımlar, habelə Ermənistanın məsuliyyətsiz davranışı, mina xəritələri ilə bağlı məlumatı bölüşməkdən imtina etməsi, Azərbaycan ərazilərində mina basdırılması məqsədilə diversant qrupu göndərməsi və sair barədə qarşı tərəfə məlumat verib.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələləri, o cümlədən enerji və təhlükəsizlik sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Xarici işlər naziri Bosniya və Herseqovinanın Parlament Məclisinin Xalqlar Palatasının spikeri ilə görüşüb

İyunun 9-da xarici işlər naziri Ceyhun Bayramovun ölkəmizdə rəsmi səfərdə olan Bosniya və Herseqovinanın Parlament Məclisinin Xalqlar Palatasının spikeri Bakir İzetbeqoviç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov qonağı salamlayaraq Azərbaycan ilə Bosniya və Herseqovina arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib. Ölkələrimizin bir-birlərinin suverenlik və ərazi bütövlüyünə verdikləri davamlı dəstəyin beynəlxalq hüququn təməl prinsiplərinə hörmətlə yanaşması ilə birgə əlaqələrimizin təməlində dayandığı xüsusilə qeyd olunub.

Bakir İzetbeqoviç Azərbaycana ikinci səfərinin baş tutduğunu və ölkədə baş verən inkişafın şahidi olduğunu bildirib. Bosniya və Herseqovinanın Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini dəstəklədiyi qeyd olunub. Səfər çərçivəsində Azərbaycanın Ağdam şəhərində olduğunu söyləyən spiker, bu ərazilərdəki dağıntıların miqyasından təəssüflə bəhs edib. Qonşu dövlətlərlə birgə yaşayışın yolunun tapılmasının vacib olduğunu söyləyən Bakir İzetbeqoviç, bunu öz ölkəsinin nümunəsində səsləndirib. Nazir qarşı tərəfə bölgədə mövcud olan cari vəziyyət, xüsusilə sərhəd məntəqəsində baş verən son gərginliklər, o cümlədən Azərbaycanın mövcud olan fikir ayrılıqlarının danışıqlar yolu ilə həllinin tərəfdarı olduğu, azad edilmiş ərazilərdə mina təhlükəsi, habelə bu torpaqlarda həyata keçirilən bərpa və yenidənqurma prosesi barədə məlumat verib.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Hər iki ölkədə qarşılıqlı şəkildə səfirliklərin açılmasının tezliklə həllinin ikitərəfli münasibətlərin inkişafına müsbət təsir göstərəcəyi vurğulanıb.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Azərbaycanın parlament nümayəndə heyəti ilə görüşüb



**İyunun 9-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüş Prezident Rəcəb Tayyib Ərdoğanın sədri olduğu Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisindəki (TBMM) deputat qrupu qarşısında çıxışından sonra keçirilib.

Görüşdən sonra xatirə şəkli çəkdirilib.

# Baş nazirin müavini Şahin Mustafayev İranın yollar və şəhərsalma naziri ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev iyunun 9-da ölkəmizdə səfərdə olan İran İslam Respublikasının yollar və şəhərsalma naziri Məhəmməd Eslami ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Məhəmməd Eslami Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və qələbə münasibətilə Azərbaycan xalqını və dövlətini təbrik edib.

Azərbaycan-İran əlaqələrinin dövlət başçılarının siyasi iradəsi ilə müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin həm Azərbaycan ilə İran arasında, həm də bütün regionda yeni əməkdaşlıq imkanlarının açdığı qeyd olunub. Həmçinin Azərbaycan-İran sərhədinin tam bərpa olunmasının iki ölkə arasında yeni layihələrin həyata keçirilməsinə zəmin yaradacağına əminlik ifadə edilib.

Görüşün sonunda Astaraçay üzərində avtomobil körpüsünün və piyada keçidinin tikintisinə dair Anlaşma Memorandumu imzalanıb. “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin mühüm komponenti olan körpü avtomobil nəqliyyatı ilə ikitərəfli və tranzit yükdaşımalarının həcminin, eyni zamanda, dövlət sərhədində buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artmasına şərait yaradacaq.

# Azərbaycanın parlament nümayəndə heyəti Anıtqəbri ziyarət edib




Ankarada səfərdə olan Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi və işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyevin daxil olduğu nümayəndə heyəti iyunun 9-da Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Milli Məclisi adından Atatürkün məzarı önünə əklil qoyulub.

Nümayəndə heyətinin üzvləri Anıtqəbir muzeyi ilə tanış olub, işçi qrupun rəhbəri Əhliman Əmiraslanov xatirə kitabına ürək sözlərini yazıb.

# Azərbaycanın parlament nümayəndə heyəti TBMM-in sədri ilə görüşüb

**Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop Ankarada səfərdə olan Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi və işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyevin daxil olduğu nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri, münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin rolu barədə səmərəli fikir mübadiləsi aparılıb. Parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Görüşdə Azərbaycanın qazandığı Zəfər yüksək qiymətləndirilib.

Qeyd edək ki, Milli Məclisin nümayəndə heyətinin Türkiyəyə səfəri iyunun 11-də başa çatacaq.

# Azərbaycan ilə Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlıq və birgə layihələr barədə fikir mübadiləsi aparılıb

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyənin səhiyyə naziri Fahrettin Koca ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətləri, səhiyyə sahəsində əməkdaşlıq, birgə layihələr ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Eyni zamanda, yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizə tədbirlərinin nəticələrindən bəhs olunub.

Qeyd edək ki, Azərbaycan və Türkiyə yeni növ koronavirus infeksiyasına qarşı mübarizədə nəzərəçarpan uğurlar qazanan ölkələr sırasındadır. Hər iki ölkədə virusa qarşı peyvəndləmə sürətlə aparılır.

## Yazıçı və həyat

**...Bəs niyə Günəşi?..**

**...Düzü, çox fikirləşirdim ki, bu yazının adı necə olsun?..**

**Fikirləşirəm, qəlbim dolur...**

**ŞUŞANIN elə tək adıca bəsdir: hər yerdən uca, hər yerdən gözəl.**

**Və əzəmətli!..**

**Yolu-rizi, dərəsi-təpəsi, kolu-kosu, gülü-çiçəyi, havası, otu...**

**Bəs niyə təkcə Günəşi?..**

**Amma Günəşi bir başqa aləm idi...**

**Allah haqqı, Günəşi hər yerdən və hər şeydən uca, işıqlı və ılıq idi.**

**Günəşə yaxın Şuşanın al şəfəqləri - isti, duru idi...**

**Sanki Tanrının və bu Yer üzünün Günəşi hamıdan, hər şeydən çox sevinirdi və bizə də bu sevinc nurundan, bax beləcə pay göndərirdi.**

**Salam, Günəşimin Şuşası!..**

**Salam, Şuşamın günəşi!..**




# ŞUŞANIN GÜNƏŞİ

...Avtobus qafiləmiz yola düzəlir və pəncərədən görünən doğma Vətən mənzərələrini bağrıma basaraq, indiyə qədər getdiyim bütün yolları xatırlamağa çalışıram.

Həyatımın ən unudulmaz səfərlərini yaddaşımın saxlancından çıxarıb, mirvari dənələri kimi bir-bir gözlərimin önündən sıralayıram, amma hiss edirəm ki, indiyə qədər ömrümə yazılmış bütün yollardan, həyəcan, maraq və xoş təəssüratlar dolu güzarlardan heç biri bu qədər olmayacaq.

**Bu yol - müqəddəs ziyarətgaha aparan yoldur və ömrümün ən gözəl yoludur...**

*Kim bilir, bəlkə bu qədər ömrü elə bu yolu getməkdən ötrü yaşayırmışam...*

❖❖❖

**ŞUŞAya gedirik...**

*...Bir-birinin ardınca qarışqa səfi kimi düzülmüş mikroavtobuslar irəliləyir, özü ilə bərabər bizi də ulu dağların başına dolandırır.*

**Nə gözəl!..**

*Kimlər yoxdur? Tanınmış simalar: deputat həmkarlarım, ictimai-siyasi xadimlər... Yazıçılar, şairlər, bəstəkarlar... Televiziya kanallarının, qəzetlərin və saytların redaktorları... Böyük orkestrın ifaçıları... Xor, rəqs ansambılları, etnik milli ruhlu bədii-özfəaliyyət kollektivləri.*

**Şuşaya - mədəniyyətimizin paytaxtına gedirik!..**

**Söz və musiqi bayramına...**

**Qələbəlik və şadyanalıqla...**

*Bir anlıq özümü böyük arzu-niyyətlərlə müqəddəs məkanlara doğru yola çıxan və aylarla yol gedən zəvvarlardan biri kimi təsəvvür edirəm.*

**Əziz Şuşa!**

**Müqəddəs Şuşa!..**

**Xoş gördük!..**

İrəlilədiyimiz yolu narahat yuxularımın içindən keçib gəlirəm. Uzun illər yuxularımdakı ot basmış cığırların, kolkosa bürünmüş yol-rizin düşüncələrimdən daş kimi asılmış qubarı da əriyib itir, yavaş-yavaş ruhumun necə dincəldiyini hiss edirəm.

Nisgilli yurdlarımızdan kənarda, bizi gözləyə-gözləyə həniri, qaraltısı itib-getmiş, görünməz olmuş ocaq yerlərimizdən uzaqlarda, gözlərindəki bulanıq həsrətlə birgə bəlkə bir gün o yerlərə aparmaq qismət olar ümidi ilə əmanət qəbirlərdə torpağa tapşırdığımız doğma insanları xatırlayıram.

**Şəhidlərimiz, qəhrəman övladlarımız...**

**Nakam getmiş yaşıdlarımız...**

**Bığ yeri tərləmədən canını tapşırmış, qanı ilə bu torpağı suvarmış nər oğullarımız...**

**Ruhunuz şad olsun!..**

Elə bilirəm ki, bu səfərdə onların ruhu da mənimlədir, o həsrətli baxışlar getdiyimiz bu yollara gözlərimlə baxır.

*Hər baxanda şadlanır, hər baxanda o həsrət azalır, nigaran ruhlar aram olub rahatlıq tapır, daxili dünyamdakı qarışıq düşüncələrin içindən şükranlıqlarını yetirir.*

**Bu an içimdəki ən böyük duyğu şükranlıq duyğusudur...**

Taleyimizə şükür edirəm.

**Ordumuza, torpaqlarımızı misilsiz qəhrəmanlıqla düşməndən təmizləmiş əsgər və zabitlərimizə şükranlıq hisslərimi çatdırıram, qanı ilə bu torpaqları daha da müqəddəsləşdirmiş şəhidlərimizin ruhu qarşısında baş əyirəm.**

*Bu müqəddəs savaşda canını fəda etmiş igidlərimizin ruhu şaddır.*

**Torpaqlarımızın azadlığı arzusu ilə Əbədiyyətə qovuşmuş Əbədiyaşar Heydər Əliyevin ruhu şaddır.**

*Bu düşüncələr, izahı mümkünsüz bu duyğular tariximizin dönüş nöqtəsidir, toplum olaraq həyatımızda yeni bir başlanğıcdır.*

**Bu tarixin canlı müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!..**

**Əsrlərə sığmayan şanlı bir tarix yazmış Azərbaycan Prezidenti!**

***Qarabağın Xilaskarı!...***

*Bu yolun hər addımında duyduğumuz ruhun, sevginin, qürurun, şükranlıqların ünvanı - Böyük Dövlət Xadimi!..*

**"*Dəmir yumruğ*"un gücü ilə bizi bu günlərə yetirmiş *Sərkərdədir* bu tarixi yaradan, adını bu tarixə əbədi yazan - *İlham Əliyev!..***

*Onun əmrində düşməni bu torpaqlardan "iti qovan kimi qovmuş" qəhrəmanlarımızdır, Azərbaycan Prezidentinin illər boyu yetişdirdiyi vətənpərvər, qorxmaz, ürəyi bu torpaqlara sevgi dolu gənclikdir.*

❖❖❖

*Azad olunandan sonra bizim ilk dəfə gəldiyimiz Şuşaya Baş Sərkərdəmiz İlham Əliyev və Azərbaycan sevdalısı, dəyərli çiyindaşı Mehriban xanım artıq üçüncü səfərlərini edirdilər. Əvvəlki gəlişləri Şuşanın dirçəldilməsi, bərpası proseslərinin başlanmasına, uğurlu gedişinə və ilkin nəticələrinə rəvac vermişdi.*

**İlham Əliyev həm də ona görə xoşbəxtdir ki, tarixə öz mübarək ismini Şuşanın Xilaskarı olmaqla yanaşı, Şuşanın Qurucusu kimi həkk etdirdi!..**

Müzəffər Komandanın "Şuşaya doğru irəli!" əmrini yerinə yetirmək üçün bu ləyaqət qalasına, şərəf zirvəsinə doğru minlərlə ərənimiz dağlara dırmaşaraq, cığırlarında sürünərək, yüngül silahlarla yürümüşdü...

Özü də kimin qarşısına? Neçə ildir bu qocaman ucalıqların bəkarətini pozaraq, onun hər qarışını səngərə, lığıma, cəbhə məntəqəsinə çevirən və dünyanın ən böyük fövqəlgüclərinin müasir artilleriyası, ağır texnikası ilə silahlanan düşmənə qarşı...

Arxasında yaralı vətən, nakam arzular və Qeyrətli Komandan olduğunu bilən cəngavərlərimiz Şuşanı mənzil-mənzil, ev-ev, məhəllə-məhəllə azad etdi...

**Şuşanın hər qarışında Azərbaycan əsgərinin qanı var...**

**Uca Şuşamız bax bu qanlarla daha da müqəddəsləşdi!..**

*İlham Əliyev Şuşada qazandığı zəfərlə iki əsrlik münaqişəyə, 32 illik savaşa son qoydu.*

**İlham Əliyev indi də daha yeni Azərbaycanın abadlığına, daha işıqlı gələcəyimizin quruculuğuna məhz Şuşadan başlayır...**

*İlham Əliyevin Azərbaycanı daha böyük hədəflərə doğru Şuşadan istiqamət götürür...*

**Şuşa artıq Azərbaycanın yeni başlanğıc məqamıdır!..**

*Bax elə yolumuz da bu başlanğıca doru idi...*

❖❖❖

**Şuşaya gedirik...**

**"Xarıbülbül" festivalına!..**

*Nə gözəl...*

Dilimizin ən müqəddəs duası kimi, yaddaşımızda bir ömür boyu səslənən ömür nəğməmizin ən gözəl misrası kimi.

O anlarda Ana dilimizdə bu bir neçə kəlmədən gözəli varmı?!.

Bu sözlərin gözəlliyindən, sehrindən allısı-ballısı varmı?..

**Söz burdadır!..**

**Sevgi burdadır!..**

Bu sözlər və sevgilər Şuşa dağlarının başının üstündəcə - zərli günəşin şəfəqləri ilə nazlanır.

**Şuşaya gedirik...**

*Şuşaya - ruhumuzun şəhərinə, arzularımızın şəhərinə, mədəniyyət, ləyaqət paytaxtımıza!..*

*Böyük bir tikinti meydanı, quruculuq səngəri olan Şuşaya.*

Yol qırağında azad yurdlarımızın adları, məsafə göstəriciləri yazılmış böyük lövhələr indi adama bir başqa cür görünür. Adlar, rəqəmlər adamın üzünə gülümsünür, tilsimdən qurtulduğunu dil açıb çatdırmaq istəyir elə bil...

*Artıq bu lövhələr həsrətin, qubarın simvolu olmaqdan çıxıb, onların üzərindəki məsafələr illərin dalanına, çıxılmazlıqlarına dirənmir, insanları həqiqətən arzularının məkanına, mənzil başına çatdırır.*

**Daha bu rəqəmlərə həsrət, nisgil, kədərli nəzərlər zillənmir, Günəş dolusu bir sabaha doğru yola çıxmış insanların gülümsər baxışları görüşür, arzuları qovuşur...**

❖❖❖

*Böyük Tanrının qələm çaldığı tablolara baxırsanmı?!*

Avtobusumuz irəlilədikcə, təbiətin qüdrət qələmi ilə torpağın köksündə yaratdığı əsrarəngiz mənzərələr bir-birini əvəz edir.

**Dağların yamacında yayılıb gedən sapsarı taxıl zəmiləri bərəkətli çörəyin üstünə yaxılıb laylanmış və qatlanıb uzanmış bal loğmasına bənzəyirdi...**

*Qırmızı, al-qırmızı, kövrək və qopraq lalələrin canına daraşdığı sinətağ zəmilər təzəcə açılan kitab vərəqləri kimi yellənirdi...*

*Qəhrəman oğullarımızın şəhid qanı kimi ormanlığın canına hopmuş, laləzar çöllərin üz-gözünə sıçramışdı...*

**Tarixin əbədi və qırmızı sətirləri ilə!..**

Bu torpaqlara bahar çələng hörüb, xallanmış ağacların, yeddiçalar püstə güllərinin, iydə budaqlarının al rəngli çiçək açdığı vədələrdir...

Uşaqlığımdan bəri bahar büsbütün bu ətirdən ibarət olub. Qəribəsi budur ki, indiyə qədər yaşadığım ömrün bu ətri duymadığım heç bir baharını xatırlaya bilmirəm.

Hətta təbiətin öz səxavətini əsirgədiyi, ağacdan, yaşıllıqdan kasad məkanlarda da yenicə çiçəklənmiş iydə ağacı öz ətri ilə hər yaz həmişə məni bax beləcə sehrləmişdi...

*Üstünə həsrət tozu hopmuş bu illərdə - bir igidin ömrü qədər vaxtda hər dəfə iydə çiçəklərinin ətri ruhuma dolanda bu yerlərin baharını xatırlayırdım. Elə bilirdim ki, daha bu ellərə bahar gəlmir, ağaclar yarpaqlamır, otlar yaşıllaşmır, bulaqlar axmır, bal arıları uçuşmur, quşlar da o vaxtdan bəri susub.*

**Bu torpaqların təbiəti o vaxtdan bəri düşüncələrimdə kədərli bir filmin soyuq bir anı kimi donub dayanmışdı...**

***Yurd yeri*** *yaddaşımın divarlarından işğalçıların törətdikləri vəhşəti, insanlığa qarşı cinayəti bütün Yer üzünə, keçmişə, bu günə, gələcəyə duyurmaq istəyən qarlı torpağın, dilsiz-ağızsız daşın, dərənin hüznlü portreti kimi asılıb qalmışdı.*

Bu yerlərin mənzərəsinin düşüncələrimdəki buzu, soyuqluğu illərin ayrılığından sonra ilk dəfə buradan keçəndə isinib hərarətlənməyə başladı.

*Oyanıb hövürlənmiş torpaq, qırışığı açılmış, dinə-imana gəlmiş yurd yerləri...*

**Yurd yeri, ocaq yeri...**

**Dağ yeri, güman yeri...**

❖❖❖

**Nə gözəl sığal çəkmisən bu yerlərə, İlahi!**

Ağac hər yerdə ağacdır, meşə hər yerdə meşə, dağ-daş, ot-ələf...

Çiyin-çiyinə söykənmiş dağ-dərə, nərbiləkli oğulları gözləyən çəmənlik və biçənək yerləri...

***Amma bu yerlərin mənzərəsində təbiətin yaşıl füsunkarlığından başqa həm də qəribə bir bakirəlik vardı...***

*Yaşıl, yamyaşıl rənglər bu min cür büsata şahidlik edirmiş kimi, gözümüzü və ruhumuzu oxşayırdı...*

Erməni vandalları əsrlərlə xalqımızın bu torpaqlarda tikib-qurduqlarını bir neçə ayın, ilin içində dağıdıb-töküb, satıb-sovsalar da, milli yaddaşı torpağın köksündən qazımaq üçün hətta məzar daşlarına qədər söküb aparsalar da, torpağın bəkarətinə əl uzada bilməyiblər.

Hünərləri çatmayıb. Təbiətin özünüqoruma instinkti onların zorakı xislətindən, təcavüzkar mahiyyətindən daha güclü çıxıb.

*Ana təbiət sevgilisi döyüş meydanında, uzaq səfərlərdə olan əli hənalı, həyalı el qızlarımız kimi öz ismətinə sığınıb, namusuna tutunub, bir saçını ağ, bir saçını qara hörərək illərlə öz könül həmdəminin yolunu gözləyib.*

Doğmasının bir gün gələcəyini, isti əllərinin sığalı ilə onu yenidən dirçəldəcəyi, zəhərli tikan kimi bədəninə sancılmış minaları, mərmiləri çıxarıb atıb, yaralarını sağaldacağı, ana torpağı yenidən əkin-biçinli, axar-baxarlı, çal-çağırlı, toylu-büsatlı, gülüş səslərinin bir-birinə qarışdığı xoşbəxt həyatına qaytaracağı günlərin intizarı ilə yaşayıb.

*Bu yerlərin əsl sahiblərinin qayıtdıqlarını görüb sevinən Anam Torpaq baharın əsrarəngiz zinətləri ilə özünə minbir bəzək vurub bütün gözəlliklərini qarşımızda sərgiləmişdi.*

**Əziz Şuşa, Ana torpaq!..**

**Xoş gördük, doğma Cıdır düzü!..**

❖❖❖

*Böyük Zəfərimizdən sonra aylardır ki, Şuşada duyulan doğma səslərdən və hənirdən, doğma əllərin hərarətindən tikililər də cana gəlmişdi, salamat divarlar məzhunluq mənzərəsindən, kədərli görkəmindən çıxmışdı və onlar adama* ***ümidin, dirçəlişin, yeni bir gələcəyin*** *boy göstərən Abidəsi kimi gəlirdi...*

**Şuşada, Cıdır düzündə dilsiz-ağızsız otu-əncər də bizimlə dil açıb danışırdı, ağac da sevinirdi, daş-qaya da sevinirdi, çiçəkdən çiçəyə qonub şirə çəkən bal arıları da sevinirdi. Ancaq...**

***Ancaq ən çox Günəş sevinirdi!..***

***Şuşanın günəşi!...***

Şəhərdə yaşayanlar dedilər ki, "Xarıbülbül" festivalının keçirildiyi günlərə qədər Şuşada hava yağmurlu keçirmiş, yaz yağışı ara vermirmiş. Amma biz gələndə Günəş zərrin şəfəqlərini şəhərin üzərinə yaymışdı. Yağışda yuyunub müqəddəs şəhərimizin üzərindəki sonuncu şəbnəmləri də qurulamışdı.

**ŞUŞA insanlıqdan kənar vandalların törətdikləri günahlardan, natəmizliklərdən qüsl edib, arınıb-durulub özünü neçə illərdən sonra burada qılınacaq Ramazan bayramı namazına hazırlamışdı.**

***Şuşadakı Gövhər ağa məscidindən*** *səmalara bülənd olan bayram azanının ecazkarlığı ətrafa yayılan vaxt dağların qoynundan boylanan Günəşi seyr etdikcə, adama elə gəlirdi ki, bu Günəş sanki bir başqa Günəşdir.*

***Bu Günəş, elə bil ki, ancaq Qarabağa, Şuşaya qucaq açıb - onu öz müqəddəs nuruna boyamaq üçün...***

**Və bu Günəşin parlaq çöhrəsindən haqqın-ədalətin öz yerini tutmasından, dünyada dilindən, inancından, mədəniyyətindən asılı olmayaraq bütün insanların qarşılıqlı sevgi və hüzur içində yaşaya biləcəkləri belə bir şəhərin, belə bir ölkənin varlığından könlü xoş olmuş Tanrının özü gülümsünür.**

❖❖❖

**Şuşa ucadadır!..**

**Dualarımızla qoşadır!..**

**Şuşa ucadır və dualarımız eşidiləndir...**

*"Xarıbülbül" festivalını izlədikcə, Azərbaycanda yaşayan müxtəlif xalqlara aid musiqi nümunələrini, rəngarəng ifaları göz dolusu seyr etdikcə, bu Vətəndə yaşayan və eləcə də, dünyanın harasında yaşayır-yaşasın, qəlbi Azərbaycanla döyünən bütün həmvətənlərimizi tək-tək sinəmə sıxmaq istəyirdim. Onları nə qədər sevdiyimi çatdırmaq, yurda və cahana sülh, tolerantlıq, multikulturalizm, insana sevgi dəyəri üzərində bərqərar olan bu mənəvi böyüklük qarşında səcdəyə getmək istəyirdim.*

**İnsanı yaşadanlar, insanı sevənlər, insanlıq üçün qurub yaradanlar bir Günəş altında birləşmişdi.**

*Həmin gün Şuşa günəşinin şəfəqləri bütün dünya azərbaycanlılarına çatırdı, Azərbaycanı sevən hər kəsi isindirirdi.*

**AZƏRBAYCANI, QARABAĞI, ŞUŞANI sevənlərin hər birinə bu nurdan, hərarətdən pay düşürdü...**

**Qəlbim atlanır, Prezidentimə, Ali Baş Komandana minnətdarlıq hissi ilə ucadan səslənmək istəyirəm...**

**Şuşa! Səni yol-rizinlə, otunçiçəyinlə, dağ-dərənlə, havanla, suyunla və... bu odlu günəşinlə bir yerdə bizə geri qaytaran və bizə bəxş eləyən odur - Müzəffər Ali Baş Komandan İlham Əliyev!..**

**Sağ olun, Cənab Prezident!**

**Bizi Şuşaya qaytardığınıza görə...**

**Bizi Şuşaya gətirdiyinizə görə...**

**Vətənimizin incisi - Şuşanı bizə qaytardığınıza görə!..**

❖❖❖

*"Xarıbülbül" festivalı əlbəttə ki, mədəniyyət hadisəsidir, zəngin multikultural ənənələrimizin təntənəsidir...*

**Amma fikrimcə, "Xarıbülbül" daha çox siyasi olaydır, hücumçu diplomatiyanın növbəti mərhələsidir, hərbi gücün davamı və əyani nümayişidir...**

*Həm də Böyük Zəfərin rəsmiyyət ünvanı olan Şuşanın timsalında bu müqəddəs Vətən uğrunda şanlı Savaşın hər an davam edə biləcəyinin qətiyyətli bəyanıdır!..*

**"Xarıbülbül" İlham Əliyevin Dəmir Yumruğunun hələ də, - əslində sonsuzadək, - düşmənin başı üzərində "Domokl Qılıncı" kimi dayandığının ən sərt ifadəsidir!..**

*İlham Əliyev "Xarıbülbül"dəki müzəffər duruşu, əzmkarlığı və kəskin sözləri ilə göstərdi ki, Azərbaycan savaşdan quruculuğa, hərb məkanından mədəniyyət platformasına qısa müddətdə keçməyi bacardığı kimi, yenidən* ***Haqq, Ədalət, Zəfər*** *yürüşünə başlaya bilər!..*

İlham Əliyevin Şuşada - "Xarıbülbül"də - məmləkətin ən hündür ləyaqət zirvəsində dalğalandırdığı Azərbaycan bayrağının kölgəsi indi Xankəndidən Xocalıya, Laçın dəhlizindən Zəngəzur koridoruna qədər bütün ərazilərimizə düşür!..

*"Xarıbülbül"də Azərbaycan daha da gücləndi, xalq daha da birləşdi, Ordumuz daha da mətinləşdi...*

*"Xarıbülbül"də düşmən və onun havadarları daha da miskinləşdi, daha da parçalandı, daha da rəzilləşdi...*

**"Xarıbülbül" İlham Əliyevin Xilaskarlıq missiyasının şərəfli zirvəsi, möhtəşəm NİDAsı oldu!!!**

❖❖❖

Keçib-getdiyimiz adda-budda kəndlər və miskin erməni evləri və acı baxışlar...

Yolboyu qarşımıza çıxan üz-gözünü tük basmış, üst-başları nimdaş, qulaqları sallax, üzbaşları qara qırtıx tük basmış yaşlı ermənilər kinli nəzərlərlə bizə baxırdılar.

Çox miskin mənzərə idi...

Karıxmış insanlar, sozalmış üzlər, səmtini itirmiş döyükən gözlər...

Çöhrələrində işıqdan əsər-əlamət görünmür... Hiss olunurdu ki, illərlə ürəklərində böyütdükləri qəzəbin-küdurətin, saxtakarlığın içində çoxdan özlərini dəfn ediblər.

Axx!.. Necə də təzadlı mənzərələr idi...

Onların üzgün baxışlarına, əllərində girəvə olsa getdiyimiz avtobuslarla birgə bütün dünyanın altını üstünə çevirməyə, bəşəriyyəti didib parçalamağa meyilli görkəmlərinə baxınca, buna qarşılıq vermək, onlara nifrət etmək istəyirdim.

Amma nə qədər qəribə olsa da, onlara nifrət etməkdən çox, yazığım gəlirdi, acıyırdım...

Bu qədər boş-boş xülyaların, cəfəng hisslərin əsiri olmağa dəyərdimi?!

***Əzəmətli dəmir yumruq, başınızı əzən zərbələr ayıltmadımı sizi?!***

***Başınız batsın!..***

***Olmayan başınız...***

Dövlət rəhbərimizin festivaldakı çıxışını dinlədikcə, hər zamankı qətiyyətinə, ağlına, zəkasına, gələcəyə baxışına heyran olduqca, "Xarıbülbül" festivalında təqdim edilən mədəniyyət incilərinin gözəlliyində ruhum təzələndikcə, o yaşlı ermənilərin miskin, depressiv görkəmlərini xatırlayırdım.

**Düşünürdüm ki, keşkə bu zavallılar İlham Əliyev kimi güclü və qətiyyətli rəhbərin Liderliyi ilə bir Günəş altında isinə bilməyin, sevginin, sülhün, qurub-yaratmaq arzusunun, tolerantlığın, başqa mədəniyyətlərə hörmət ruhunun insana nə qədər böyük könül xoşluğu, heç zaman bitməyən xoşbəxtlik ruhu gətirdiyini bir bilsəydilər...**

*Mahiyyəti ancaq söküb-dağıtmaqdan, əlinə keçəni, gözünə görünəni mənqirləyib içəri ötürməkdən, oğurlamaqdan, özünün saxta tarixini, milli varlığını üfürüb şişirtməyə çalışmaqdan ibarət olan bu vəhşi, vandal həyat tərzi kimə lazım?!*

**Yaman olur anlamaq dərdi...**

❖❖❖

**Qayıdırıq...**

Dağların belinə kəmər kimi dolaşan çarpaz yollar aşağılara, yaşıl ormanlığa, dərin ənginliklərə açılır.

Ağacları qalın, sıxma meşələrin içi ilə sallanıb, şellənib gedirik...

**Qürurla...**

**İftixar hissi ilə...**

...Cıdır düzündə, arzularımızın reallığa çevrildiyi bir məkanda xeyli gəzdik, qol-qola, əl-ələ verib rəqs etdik, yallı getdik...

Bu müqəddəs torpağın ruhu hopmuş yumurtalı, zəfəranlı və dişimizin dibinəcən ləzzəti qalmış, bir özgə təamlı kömbə çörək yedik...

**Bu müqəddəs yol, bu səfər hamımızı elə ovsunlamışdı ki...**

**Təbiətin füsunkarlığı, uzun illərin həsrətindən sonra qismət olan vüsalın həyəcanı və ən çox da, odlu istisi və isti odu ilə bizi salamlayan *Şuşa Günəşinin* sehri...**

**Fərqindəyəm ki, yaza biləcəklərim yazdıqlarımdan çoxdur, xeyli çox...**

**Nə etməli, qalanı da yeni səfərlərə...**

**Azadlığın, yeni cəlalın mübarək, Qarabağ!...**

**Salamat qal, sevimli "Cıdır düzü"!..**

**Yeni görüşlərədək, əzizim Şuşa!**

**Günəşli sevgilərlə, sevgili Günəşlə!..**

**Və xoş arzularla!..**

**İmamverdi İSMAYILOV,**
*Milli Məclisin deputatı, yazıçı-publisist*

◆ Müəllifi İlham Əliyevdir



# Ağcabədidə həyat ASANlaşıb

İlham Əliyevin ötən il açılışını etdiyi regional "ASAN xidmət" mərkəzində bir ildə 132 minə yaxın müraciətə baxılıb







*Əvvəli 1-ci səh.*

Ağcabədiyə səfərimizin məqsədi də mərkəzin bir illik fəaliyyəti ilə tanış olmaq idi. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev dedi ki, Ağcabədi "ASAN Həyat" kompleksinin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb və 2020-ci ilin iyununda işlər başa çatdırılıb. Buradakı "ASAN xidmət" mərkəzi Ağcabədi, Beyləqan, Zərdab, Ağdam, Şuşa, Füzuli, Cəbrayıl, Xocalı və Xocavənd rayonlarında qeydiyyatda olan 814 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərir. Fəaliyyət göstərdiyi müddət ərzində 132 minə yaxın vətəndaş müraciəti qeydə alınıb. Mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət həyata keçirilir.

Kompleks üçün ayrılan ərazidə "ASAN Həyat"ın 7290 kvadratmetrlik 3 mərtəbəli inzibati binası inşa olunub, həmçinin uşaq, idman və istirahət meydançası, avtobus dayanacağı, 100 avtomobillik avtodayanacaq, 54 yerlik açıq hava kafesi, 92 və 46 yerlik 2 zaldan ibarət kinoteatr, 100 nəfər tutumlu amfiteatr diskoteka, "ABAD Food Hall", "ABAD Box Park" və "Paint Ball" oyun sahələri yaradılıb. Sayca beşinci olan "ABAD Food Hall"da ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların sərgi-satışı təşkil edilir. "ABAD Box Park"da isə vətəndaşlar ABAD məhsullarının yerləşdirildiyi xüsusi konteynerlərdə çeşidli təamları dadır, həmçinin alış-verişdən yararlana bilirlər. "Sport Bar" guşəsində idman oyunlarının nümayişi üçün nəzərdə tutulmuş böyük ekran quraşdırılıb. Bundan əlavə, kompleksdə "Fast Food", "Souviner" və "Cofe Shop" da var. "Paint Ball" sahəsində on nəfərlik komanda heyətinin oyununu təşkil etmək mümkündür.

Kompleksin həyətində vətəndaşların asudə vaxtlarını xoş keçirmələri üçün park salınıb. Parkın ərazisində fəvvarə, uşaq əyləncə guşəsi, konsert meydançası, idman əyləncə guşəsi var. Vətəndaşlar "ASAN xidmət" mərkəzində operativ, şəffaf və gülərüz xidmətlərlə rastlaşmaqla yanaşı, bu kompleksin istirahət, əyləncə imkanlarından da istifadə edirlər.

Bir sözlə, kompleks vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.









## Qorunan sosial məsafə, gülərüz, mehriban personal və kreativlik

Kompleksdə fəaliyyət göstərən "ASAN xidmət" mərkəzinin inzibati binası fərqli xarici üslubu ilə yanaşı, daxili interyeri, genişliyi, son dərəcə təmizliyi ilə də ilk andan diqqət çəkir və insanda xoş ovqat yaradır.

Mərkəzə daxil olarkən rastlaşdığın ilk məqam dezinfeksiya qaydalarına ciddi əməl edilməsi olur. Əvvəlcə xüsusi aparatla hərarət yoxlanılır, sonra əllər spirtlənir. Kompüter arxasında əyləşən əməkdaşlar tibbi maskadan istifadə etməklə bir-birindən aralı əyləşib məsafəni gözləyirlər.





Elə ilk addımdan şəffaf və operativ xidmət məkanına düşdüyünü başa düşən vətəndaşı girişdə gülərüz və mehriban personal qarşılayaraq ona ilk lazım olan informasiyanı verir.

Məlumat mərkəzinin gülərüz əməkdaşlarının vətəndaşlarla iş prosesini kənardan izləyirik. Əməkdaşlar vətəndaşların sənədlərini yoxladıqdan sonra onlara hansı xidmət üçün müraciət etməli olduqlarını aydınlaşdırırlar. Beləcə, hər kəs asanlıqla istənilən xidmətdən yararlana bilir. Təbii ki, vətəndaşın mərkəzin inzibati binasına daxil olmasından başlayan bütün proseslər koronavirus təhlükəsi səbəbindən sosial məsafə tələblərinə əməl edilməklə həyata keçirilir.

Vətəndaşların Qəbul İşi sektorunun əməkdaşı Afiyəddin Əliyev ikinci qrup Qarabağ müharibəsi əlilidir. 2016-cı il Aprel döyüşlərinin iştirakçısı, Prezident təqaüdçüsüdür. A.Əliyev deyir ki, hazırda mərkəzin əməkdaşları karantin rejiminin tələblərinə ciddə əməl etməklə fəaliyyətlərini davam etdirirlər. Onun sözlərinə görə, artıq vətəndaşlar da başa düşürlər ki, məsafə saxlamaq mütləqdir və hər kəs bir-birini anlayışla qarşılayır. Bu, əlbəttə ki, ilk növbədə, vətəndaşların sağlamlığının qorunmasına xidmət edir: "Əlimizdən gələni edirik ki, vətəndaşlar məmnun qalsınlar. Əməkdaşlarımız yorulmadan, təmkinlə insanları dinləyir, onlara istiqamət verir. Bir sözlə, operativlik, şəffaflıq, nəzakətlilik prinsipləri qorunmaqla bütün proseslər uğurla icra edilir".

Ağcabədi rayon sakini Arif Qasımovla söhbətimiz zamanı bəlli olur ki, oğluna bağışladığı torpaq sahəsinin sənədləşdirilməsi üçün buraya təşrif buyurub. Bir il ərzində ikinci dəfə "ASAN xidmət"ə müraciət edən vətəndaş deyir ki, artıq bütün işlər asanlaşıb. Daha sənəd toplamaq, möhür vurdurmaq üçün müxtəlif idarələrə getmirlər: "Vallah, belə yüksək xidmət heç bir yerdə yoxdur. Nə istəyirsən, hansı sənədi düzəltmək istəyirsənsə, bura gəlirsən və tez bir zamanda işlərini qaydaya qoyursan. Allah Prezidentin canını sağ etsin, bizim rahatlığımız üçün nə lazımdırsa edir. Nə rüşvət istəyən var, nə də süründürməçilik. Heç kimi incitmirlər, ona görə də hamı buradakı xidmətdən razıdır. Hesab edirəm ki, Prezidentimiz belə mərkəzlər açmaqla rayonlarda yaşayan əhaliyə böyük töhfə verir. Sağ olsun, dövlət başçımızdan çox razıyıq".

## "ASAN xidmət" həm də gənclər mərkəzidir

Mərkəzin digər əməkdaşı Pərviz Səmədov bir ildir ki, burada vətəndaşlara xidmət göstərir. Pərviz bundan öncə könüllü kimi çalışıb və bu gün könüllülər üzrə iş sahəsində məsul şəxsdir. Mərkəzdə könüllülərlə müxtəlif istiqamətlərdə layihələr həyata keçirildiyini bildirən Pərviz deyir ki, 150-yə yaxın könüllü ilə 100-ə yaxın sosial tədbirlər keçirilib: "Öncə könüllü oldum. "ASAN Könüllülük" Məktəbinin "Master-1" və "Master-2" pillələrini başa vurdum. Könüllülük fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə təşkil olunan bu pillələr üzrə geniş təcrübə topladım. Sonra mənə böyük etimad göstərildi və bu gün göstərilən etimadı doğrultmaq üçün əlimdən gələni edirəm".

Ağcabədi Pedaqoji Kollecinin ikinci kurs tələbəsi Lalə Əliyeva isə hazırda mərkəzdə könüllü kimi çalışır. Deyir ki, burada çalışmaq, ilk növbədə, ona böyük təcrübə qazandırır: "Kollektivlə çalışmaq, vətəndaşlarla daha isti münasibət qurmaq istiqamətində yaxşı təcrübə toplayıram. Bu, əlbəttə ki, gələcək karyeram üçün çox əhəmiyyətli imkandır. Prezident İlham Əliyevin mərkəzimizin açılışı zamanı könüllülərlə keçirdiyi görüşdə söylədiyi fikirlər isə məni daha da ruhlandırdı. Çalışıram ki, üzərimə düşən vəzifəni layiqincə yerinə yetirim və mənə olan etimadı doğruldum".

Xatırladaq ki, mərkəzin açılışı zamanı könüllülər ilə görüşdə çıxış edən Prezident İlham Əliyev "ASAN xidmət"i milli brend adlandıraraq bildirmişdi ki, bugünkü könüllülər sabahın rəhbər işçiləridir. Təsadüfi deyil ki, dövlət başçısının sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan edilmişdir. Bu, bir daha dövlətin könüllülərin fəaliyyətinə göstərdiyi diqqəti və münasibəti əks etdirir. Gənclər "ASAN Həyat", "ASAN xidmət" mərkəzlərində fəaliyyətləri ilə Vətənə çox böyük xidmət göstərirlər.

## Azərbaycan artıq intellektual məhsulunu ixrac edir

Göründüyü kimi, vətəndaşlar hətta karantin dövründə də şəffaf və operativ xidmət göstərən "ASAN xidmət" mərkəzlərinin işindən böyük razılıq edirlər. Bu mərkəzlər illərdir ki, fəaliyyət göstərir və xidmətlərin səviyyəsi heç vaxt aşağı düşmür.

Qlobal pandemiya ilə mübarizə şəraitində vətəndaşlara operativ xidmət göstərilməsi dövlətin vətəndaşa qayğısının real təzahürüdür. Bu gün ölkəmizdə 20 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.

Elnur Niftəliyev deyir ki, Bakıda iki, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri tikiləcək. Bununla yanaşı, Bakıda "ASAN Kommunal" mərkəzlərinin açılışları da planlaşdırılır.

Prezident İlham Əliyev Balakənə səfəri zamanı sayca 20-ci "ASAN xidmət" mərkəzinin açılışında vurğulamışdır ki, maksimum gələn ilin sonuna qədər Azərbaycanda 27 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərəcək.

Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın intellektual məhsulu olan bu mərkəzlər vətəndaş məmnunluğuna xidmət edir. Azərbaycan artıq intellektual məhsulunu da ixrac etməkdədir. Bir neçə dövlətlərlə bu barədə anlaşma var. "ASAN xidmət" mərkəzlərinin o ölkələrdə yaradılması ilə əlaqədar müqavilələr imzalanıb. Bəzi ölkələrdə artıq "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb.

Bir ildir fəaliyyət göstərən Ağcabədi "ASAN xidmət" mərkəzi də öz gülərüz kollektivi və könüllüləri ilə vətəndaşların tam xidmətindədir. Bu mənzərəyə şahidlik etmək bizdə də xoş təəssüratlar yaratdı və bir yaşı tamam olan mərkəzin kollektivinə uğurlar arzulayaraq kompleksdən ayrıldıq.

**_Rəşad BAXŞƏLİYEV,_**
**_"Azərbaycan"_**

# Cənubi Qafqazın siyasi, iqtisadi və hərbi gücü

*Əvvəli 1-ci səh.*

## Azərbaycan Silahlı Qüvvələri işğalçını cəmi 44 günə darmadağın etdi

Cənubi Qafqazın hərbi gücünə gəldikdə isə, Azərbaycanın ən müasir döyüş imkanlarına malik olması illər öncədən məlum idi. Prezident İlham Əliyev respublikamıza rəhbərlik etdiyi ilk vaxtdan ordu quruculuğunu xüsusi diqqət mərkəzində saxladı. Silahlı Qüvvələrimizin döyüş imkanlarının artırılması üçün ən müasir hərbi texnika qoşun növlərinin arsenalına daxil edildi. İlk dəfə hələ 2008-ci ildə keçirilən hərbi paradda yerli və beynəlxalq ictimaiyyət ordumuzun güclənən döyüş imkanları ilə tanış oldu.

Ordumuzun inkişafı və arsenalını gücləndirməsi hərbi sahə üzrə ixtisaslaşmış reytinq agentliklərinin də diqqətindən yayınmayıb. İndiyədək paradlarda nümayiş etdirilən hərbi texnikalar, düşmənə müasir döyüş imkanları ilə zərbələrin vurulması Silahlı Qüvvələrimizin ən güclülər sırasına daxil olmasının təsdiqidir.

Beynəlxalq münasibətlər sisteminin bugünkü mənzərəsi də göstərir ki, güc amili yaranan problemlərin həllində əsas rol oynayan vasitəyə çevrilib. Artıq elə bir dövrə gəlib çatmışıq beynəlxalq hüquq və onun prinsiplərinin toxunulmazlığı aktuallığını itirib. Elə Ermənistan da beynəlxalq hüququn norma və prinsiplərini tapdaladığı üçün Azərbaycan güc yolu ilə onu cəzalandırdı. Prezident İlham Əliyev həmişə bildirirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə ordumuz öz sözünü deyəcək. Proqnozlar da ondan ibarət idi ki, müharibə başlayarsa, yüksək keyfiyyət göstəricilərinə malik olan ordumuzun qarşısında Ermənistan duruş gətirə bilməycək. Gözlənildiyi kimi də oldu. Azərbaycan Silahlı Qüvvələri işğalçı ordunu cəmi 44 günə darmadağın etdi və dövlətimizin ərazi bütövlüyü təmin olundu.

Bütün bunlar barədə danışarkən müstəqilliyimizin ilk illərində baş verənlər gözümüzün önündə canlanır. O illərdə təsəvvür belə etmirdik ki, Azərbaycan güclənəcək, yüksək inkişaf göstəricilərinə nail olacaq, BMT Təhlükəsizlik Şurasına sədrlik edəcək, kosmik klubda yer alacaq. Bəli, Heydər Əliyevin qurduğu və onun ideyaları ilə addımlayan Azərbaycan dövləti bütün bunlara nail oldu. Bu gün xalqımız Heydər Əliyevin böyük müdrikliklə yerinə yetirdiyi xilaskarlıq missiyasının sayəsində qazanılan möhtəşəm uğurlarla, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tarixin ən qüdrətli Azərbaycanı ilə fəxr edir, qürur hissi keçirir.

**_Rəşad CƏFƏRLİ,_**
**_"Azərbaycan"_**

# Şəhid jurnalistlərin anım mərasimi keçirilib

İyunun 9-da AZƏRTAC-da işğaldan azad edilmiş Kəlbəcər rayonunda peşə fəaliyyətini icra edərkən mina partlaması nəticəsində həlak olan jurnalistlərin - agentliyin müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun anım mərasimi keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin AZƏRTAC-ın binasının foyesindəki abidəsi önünə güllər düzülüb, xatirəsi ehtiramla yad olunub.

Binanın qarşısında keçirilən anım mərasimində çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Qələbədən, Azərbaycan mediasının şanlı Zəfər yolunun işıqlandırılması istiqamətində fəaliyyətindən danışıb. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərə ezam olunmuş çəkiliş qrupunun üzvləri, o cümlədən Məhərrəm və Sirac son dərəcə gərəkli, fədakarlıq tələb edən missiya yerinə yetirirdilər. Onların xain düşmən tərəfindən basdırılmış minaya düşərək həlak olmaları təkcə çalışdıqları kollektivlər üçün deyil, bütün ölkə mediası üçün ağır, əvəzolunmaz itkidir. Şəhid jurnalistlərin xatirəsi həmkarlarının qəlbində daim yaşayacaqdır.

Məhərrəm İbrahimovun iş yoldaşları onunla bağlı xatirələrini bölüşüb, ürək sözlərini dilə gətiriblər.

Sonda şəhid jurnalistlər Məhərrəm İbrahimovun və Sirac Abışovun AZƏRTAC-ın binası qarşısında qoyulmuş portretləri önünə gül dəstələri düzülüb.

Qeyd edək ki, iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşüb. Partlayış nəticəsində çəkiliş qrupunun iki üzvü - Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov, habelə rayon icra hakimiyyətinin nümayəndəsi Arif Əliyev həlak olub, 4 nəfər isə yaralanıb.

# Söz qatilləri

*Əvvəli 1-ci səh.*

O gün Kəlbəcərdə, Susuzluğa gedən yolda partlayan o xain bombanın qəlpələri ürəklərimizə xəncər kimi saplandı...

Bədənimizdə hələ də Vətən torpaqlarına can qorxusu ilə ayaq basmağın ürpərtisini hiss etdik, ağrısı iliklərimizə işlədi...

Bir anlıq o üç günahsızla bərabər öldük... dirildik...

Qələbədən sonra şəhid verməyin dözülməz ağrısını yaşadıq...

Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevi, həmkarlarımızı, - AzTV telekanalının operatoru Sirac Abışovu, "AZƏRTAC" xəbər agentliyinin əməkdaşı Məhərrəm İbrahimovu itirməyin qəhəri boğazımızı, acısı bağrımızı qovurdu...

Bəli, Siracla Məhərrəm hərbi müxbir idilər, amma daha müharibə getmirdi, axı...

Elə müharibənin özündə də Siracla, Məhərrəmin silahı sadəcə söz, sadəcə kamera idi...

Siracla, Məhərrəm bütün Azərbaycan xalqının gözü, sözü olmaq üçün yollanmışdı yaralı yurdlarımıza...

Namərd erməni torpaqlarımıza mina basdırıb deyə, hələlik biz didərgin salındığımız o yerlərə gedə bilmirik, amma onlar bizim əvəzimizə cəsarətlə yollanırdılar ...Cəbrayıla, Füzuliyə, Ağdama, Laçına, Kəlbəcərə...

Heç olmazsa onların çəkdiyi kadrlardan təsəlli tapaq, Vətən sevdamızı dindirək deyə...

❖ ❖ ❖

Bir də, dünya erməni vəhşiliyini öz gözləri ilə görsün, torpaqlarımızda tarixi, dini, mədəni abidələrimizə qarşı barbarlıqlara şahidlik etsin deyə, yollanmışdılar 30 illik əsirlikdən qurtarılan torpaqlarımıza...

Sirac da, Məhərrəm də yaxşı bilirdi ki, çıxdıqları bu yolda addımbaşı namərd düşmənin tələləri, bombaları var...

Amma həqiqəti dünyaya car çəkmək, erməni faşizmini aləmə yaymaq kimi müqəddəs bir missiyanın ardınca getməyi, həm vəzifə, həm də vətəndaşlıq borcu bilərək bu qorxulu yoldan dönmədilər...

Qarış-qarış gəzdilər azad olunan torpaqlarımızı, zirvəsinin qarını, baharının gül-çiçəyini çəkib göstərdilər...

Ürəkağrısı ilə dağıdılan məscidlərimizdən, tarixi abidələrimizdən, talan olan yurdlarımızdan neçə-neçə süjetlər çəkdilər, reportajlar hazırladılar...

Onlar öz doğma torpaqlarına ölməyə yox, hər zaman yaşamaq arxasınca getdilər...

❖ ❖ ❖

*Görmürsən, dünya...*
*Duymursan, dünya...*
*Dinmirsən, dünya...*
*Niyə nizamın əyilib?*

Axı bizik əzəli torpaqlarından didərgin olan, bizik əsir düşən, bizik dözülməz işgəncələrə düçar olan, soyqırımlar yaşayan, qətllərlə üzləşən, terrora məruz qalan...

Bütün bu haqsızlıqlar qarşısında korsan, karsan, lalsan, dünya...

Amma daha yetər, dünya...

Sən susursan, biz susmayacağıq...

❖ ❖ ❖

İnsanlığa, yaşama, təbiətə, sözə qənim kəsilən, cani erməni, haqqın, ədalətin qarşısında cavab verməli olacaqsan...

Məhdud, mənfur düşüncəli, erməni, elə bilirsən ki, Azərbaycan xalqının Vətən eşqini torpağa basdırdığın mina qorxusu ilə öldürə biləcəksən?!

Əlbət, o minalar bir-bir partlayacaq, nəhayətində tükənəcək, amma qəlblərimizdəki Qarabağ sevgisi heç zaman tükənməyəcək, sonsuzadək sürəcək...

Erməni, bil, mina xəritəsini versən də, verməsən də biz o torpaqlara dönəcəyik...

Namərd tələlərin, pusquların birimizi şəhid etsə də, minimiz dirilib yenidən o torpaqlara qovuşmağa can atacağıq...

Erməni faşizmini dünyaya tanıdacağıq, bu canilərin terror əməlləri barədə susmayacağıq, sözümüzü deyəcəyik, həqiqətləri göstərəcəyik...

Siracın, Məhərrəmin yarıda qırılan haqq yolunu davam etdirəcəyik...

**_Yasəmən MUSAYEVA,_**
**_"Azərbaycan"_**

# YAP Mərkəzi Aparatında Çinin ölkəmizdəki səfiri ilə görüş keçirilib

İyunun 9-da Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və YAP Sədrinin müavini Əli Əhmədov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min ilə partiyanın Mərkəzi Aparatında görüşüblər.



YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Çin arasındakı münasibətlərin hazırkı vəziyyətinin məmnunluq doğurduğu vurğulanıb. Bildirilib ki, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq tərəflər üçün olduqca faydalı və əhəmiyyətlidir. Həmçinin ölkələrimizin COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində təmaslarının və əlaqələrinin önəmindən bəhs olunub. Qeyd edilib ki, Azərbaycan və Çin koronavirus pandemiyasına qarşı beynəlxalq mübarizə istiqamətində qlobal əməkdaşlığın və həmrəyliyin təmin olunmasına mühüm töhfə verirlər.

Görüşdə Azərbaycan və Çinin beynəlxalq müstəvidə bir-birinin milli maraqlarının qorunması üçün strateji əhəmiyyət daşıyan məsələlərdə qarşılıqlı dəstək nümayiş etdirmələrinin strateji əhəmiyyətə malik olduğu vurğulanıb. Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinlə telefon danışığı zamanı Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə səmimi təbriklərini çatdırdığı xatırlanaraq Azərbaycan-Çin münasibətlərinin inkişafında hər iki ölkə rəhbərliyinin siyasi iradəsinin müstəsna rolu xüsusi qeyd edilib. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın dərinləşdirilməsi iki ölkə münasibətlərinin daha da möhkəmlənməsində xüsusi əhəmiyyətə malikdir. Çin Kommunist Partiyasının 100 illiyi münasibətilə iyul ayında dünya siyasi partiyalarının liderlərinin iştirakı ilə keçiriləcək videokonfransa Yeni Azərbaycan Partiyasının da dəvət olunduğu, YAP-ın sözügedən tədbirdə iştirakına böyük önəm verildiyi diqqətə çatdırılıb.

Eyni zamanda Azərbaycan və Çinin milli-strateji mənafelərə əsaslanan qarşılıqlı faydalı münasibətlərin inkişafında maraqlı olduqları qeyd edilib və çoxşaxəli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

Sonda qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə əlaqədar ətraflı fikir mübadiləsi aparılıb.

# Latviya Seyminin nümayəndə heyəti Gəncəyə səfər edib

İyunun 9-da Latviya Respublikası Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığı təşviq edən qrupunun rəhbəri Roman Naudinşin başçılığı altında nümayəndə heyəti Gəncə şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, səfərin məqsədi ötən il oktyabrın 11-də və 17-də gecə saatlarında cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin ayrı-ayrı məkanlarında Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış olmaqdır. Ermənistanın hərbi cinayətləri ilə tanış olan qonaqlara məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə Protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Ermənistan ordusunun oktyabrın 11-də və 17-də Gəncədə törətdiyi müharibə cinayəti nəticəsində aralarında uşaq, qadın və yaşlıların da olduğu onlarla dinc sakin ölüb və yaralanıb.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Nümayəndə heyəti erməni faşizminin izləri ilə tanış olub, düşmənin raket hücumu nəticəsində doğmalarını, ailə üzvlərini və yaxın qohumlarını itirənlərin faciələrini dinləyiblər.

Latviya Respublikası Seyminin Azərbaycan parlamenti ilə əməkdaşlığın inkişafı üzrə qrupunun rəhbəri Roman Naudinş jurnalistlərə açıqlamasında bildirib ki, Ermənistan silahlı qüvvələrinin törətdikləri ağlasığmazdır: "Ümidvaram ki, bu terror aktları qısa vaxt ərzində araşdırılacaq və təqsirkarlar cəzalarını alacaqlar. Cinayətkarlar törətdiyi əməllərə görə cavab verməlidirlər. Dünya birliyi Azərbaycanın dinc əhalisinə qarşı törədilən bütün hərbi cinayətləri qınamalıdır. Latviya Azərbaycanın öz tarixi torpaqlarını işğaldan azad etdiyi günlərdə baş verən hadisələri çox diqqətlə izləyirdi. Biz müharibənin gedişində zərər çəkən dinc vətəndaşlara görə çox həyəcan keçirirdik".

Roman Naudinş qeyd edib ki, əgər dünya birliyi vaxtında Ermənistana təzyiq göstərsəydi, müharibədən qaçmaq mümkün idi. "Mən hazırda həmin bombalanan evlərin qarşısındayam. Gəncənin atəşə tutulması terror aktıdır. Bunun başqa adı yoxdur. Terrorçular cəzalarını çəkməlidir. Ermənistan tam izolyasiya şəraitində yaşayır. Qonşularınla sülh şəraitində yaşamaq lazımdır. Bu mənzərəni görmək çox ağırdır. İnsanlar sülh şəraitində yaşamalıdır. Ermənistan rəhbərliyi ağılla hərəkət etməlidir. Bütün dünya bu torpaqları Azərbaycan əraziləri kimi tanıyıb", - deyə o əlavə edib.

# Hərbi cinayətlərdə ittiham olunan erməni hərbçilərlə bağlı növbəti məhkəmə iclası keçirilib

Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş azərbaycanlılara qarşı amansız işgəncələr verməkdə ittiham olunan erməni hərbçilər - Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviç ilə bağlı cinayət işi üzrə iyunun 9-da Yasamal Rayon Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, ictimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında yerli və xarici media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində qanunsuz fəaliyyət göstərən erməni separatçı rejiminin silahlı birləşmələrinin üzvləri, Ermənistan Respublikasının vətəndaşları Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətməsi və digər faktlara görə başlanmış cinayət işi üzrə təqsirləndirilirlər.

Təqsirləndirilən şəxslər cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən, tərcüməçi və vəkillərlə təmin olunub.

Bakı Hərbi Məhkəməsinin hakimi Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən açıq məhkəmə iclasında ittiham aktı elan olundu. İttiham aktına əsasən, Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın azərbaycanlı əsirlərin və beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxslərin girov saxlanılması, onlara işgəncə verilməsi, qəddar və qeyri-insani rəftar edilməsi faktları müəyyən edilib. Belə ki, istintaqa müəyyən olunub ki, Ermənistan Respublikasının vətəndaşı 1969-cu il təvəllüdlü Lüdvik Mkrtiçyan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan, habelə Ermənistandan gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış silahlı qrupların fəaliyyətində iştirak edib, onlarla qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək 1991-ci ilin iyulunda Xocalı şəhəri yaxınlığındakı "Ballıca" adlandırılan meşədə girov götürülərək azadlığı qanunsuz olaraq məhdudlaşdırılmış Azərbaycan vətəndaşına, habelə 1999-cu il sentyabrın 13-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində girov götürülərək Ermənistan Respublikasının İrəvan şəhərinə gətirilmiş və həmin şəhərdə yerləşən hərbi hissələrin birində qanunsuz saxlanılan mülki şəxsə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən sorğu-sual edilən zaman tərcüməçi kimi iştirak edərkən işgəncə verib.

İstintaqla Lüdvik Mkrtiçyan tərəfindən daha 11 nəfər əsir götürülmüş Azərbaycan vətəndaşının müxtəlif vaxtlarda Xocavənd və Ağdərə rayonları ərazisində, Şuşa həbsxanasında və Ermənistanın İrəvan şəhərində qanunsuz saxlanıldığı yerlərdə döyülərək müxtəlif xarakterli işgəncələrə məruz qaldığı və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusunun avtomat silahdan atəş açılaraq öldürüldüyü müəyyənləşdirilib.

Lüdvik Mkrtiçyan 2020-ci il oktyabrın 20-də Füzuli rayonunun Məlikcanlı kəndi ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən saxlanılaraq ələ keçirilib.

İstintaqla Alyoşa Xosrovyanın 5 azərbaycanlıya əsirlikdə olduqları müddətdə işgəncə verməsi, onlarla qəddar və qeyri-insani rəftar etməsi müəyyənləşdirilib.

Belə ki, Alyoşa Xosrovyan 1994-cü ilin aprelində Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin əsir düşmüş sabiq əsgərini Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndindəki yaşayış evlərinin birində qanunsuz olaraq saxlanılan zaman, qondarma "Dağlıq Qarabağ respublikası"nın "müdafiə naziri" Babayan Samvel Andranikoviç üçün həmin kənddə evin tikintisində ağır işlərin görülməsinə məcbur edib ona müxtəlif dərəcəli xəsarətlər yetirib.

Bundan başqa, Alyoşa Xosrovyan Azərbaycan Silahlı Qüvvələrinin 1993-1994-cü illərdə əsir düşərək Şuşa şəhər həbsxanasında qanunsuz saxlanılan əsgərlərinə qarşı da xüsusi qəddarlıq nümayiş etdirərək onlara mütəmadi qaydada döymə, ac-susuz saxlama, fiziki və psixi iztirablar yetirməklə işgəncə verib.

Alyoşa Xosrovyan Azərbaycan Respublikasının ərazilərində kəşfiyyat xarakterli hərəkətlər apararkən 2020-ci il oktyabrın 3-də Azərbaycan silahlı bölmələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilib.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın Cinayət Məcəlləsinin 113-cü (işgəncə), 115.2-ci (müharibə qanunlarını və adətlərini pozma), 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən onlara həmin maddələr üzrə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Mayın 20-də iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Bu cinayət işi üzrə özlərini qismən təqsirli saydıqlarını deyən Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan zərərçəkmiş şəxslər dindirildikdən sonra məhkəmədə ifadə verəcəklərini bildiriblər.

Məhkəmədə zərərçəkən qismində ifadə verən Bərdə rayon sakini Qərib Vəliyev 1999-cu ildə yaralı vəziyyətdə əsir götürüldüyünü, əvvəlcə Şuşa həbsxanasında saxlanıldığını, sonra isə Laçına gətirildiyini deyib. Bildirib ki, əsirlikdə saxlanıldığı müddətdə çoxsaylı işgəncələrə məruz qalıb. O, Lüdvik Mkrtiçyanı hərbi formada gördüyünü və Azərbaycan dilində səlis danışa bildiyini qeyd edib. O, hərbçi olmasının öyrənilməsindən sonra daha ağır işgəncələrə məruz qaldığını deyib.

Zərərçəkən qismində ifadə verən Hüseyn Cavid isə 1994-cü ildə Ağdamda əsir düşdüyünü qeyd edib. Ağdamda, Xankəndidə, Şuşa həbsxanasında saxlanıldığı müddətdə çoxsaylı işgəncələrə məruz qaldığını, nəticədə görmə qabiliyyətini itirdiyini bildirən Hüseyn Cavid deyib: "Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan əsir düşmüş azərbaycanlılara dəhşətli işgəncələr verirdilər. Başıma dəmirlə vurdular, məni döydülər və qarın altında basdırdılar. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri məni o vəziyyətdə görməsinlər deyə, məni qala divarından aşağı atdılar. Sonra Şuşa həbsxanasının arxasında bir gün ərzində məni qarın altında bağlı vəziyyətdə saxladılar. 1995-ci il martın 21-də - Novruz bayramı günü bu adamlarla birlikdə bir neçə nəfər bizi sıraya düzdülər və döydülər. Onlardan biri mənə "Qarabağ sizindir, ya bizim?", - deyə sual verdi. Mən "bizimdir" dedikdən sonra var qüvvəsi ilə dəyənəklə gözümün üstündən vurdular. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin nümayəndələrindən gizlətmək üçün məni "karser"də xlorlu suya saldılar".

Məhkəmə prosesi zərərçəkənlərin ifadələrinin alınması ilə davam edib.

Növbəti məhkəmə iclası iyunun 16-na təyin olunub.

Xatırladaq ki, bu cinayət işi üzrə məhkəmə prosesinin hazırlıq iclası iyunun 2-də keçirilib.

## B İ L D İ R İ Ş

08 aprel 2021-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatı üçün maşın və avadanlıqların satın alınması üzrə keçirilən elektron açıq tenderdə **"Unisell" MMC** qalib olmuş və həmin şirkətlə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Xızı Suvarma Sistemləri İdarəsi tərəfindən kollektor-drenaj şəbəkəsinin lildən təmizlənməsi işlərinin satın alınması ilə əlaqədar elan olunmuş açıq tenderdə iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tenderin nəticələri haqqında Tender komissiyasının 20.04.2021-ci il tarixli yekun protokoluna əsasən **"Aztikintiservis" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi 16.05.2021-ci il tarixdə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu "Elektrik işıqlanma və güc elektrik avadanlıqları"nın satın alınması məqsədilə 23.04.2021-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində "LOTUS CO" QSC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsi *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsi Agentliyin Aparatı və tabeli müəssisələri üçün katriclərin doldurulmasının satın alınması üzrə açıq tender elan edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində**
**"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsi**
**VÖEN: 1003853391**
**Bank: "Kapital Bank" ASC 28 May filialı**
**KOD: 200123**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT BIK AIIBAZ2X**
**H/HESABI: AZ29AIIB38060019440816558112**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədlər notarial qaydada təsdiq edilməli və PDF formatında yerləşdirilməlidir).*
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış (malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır, 01.05.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir, sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir, əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir).*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə, vergi orqanları tərəfindən təsdiq olunmalıdır, əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir).*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir, əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir. 01.05.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir).*
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (malgöndərən (podratçı) tərəfindən hazırlanır).*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının və vergi uçotunda olduğunu təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti).*
*9. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından yüklülük barədə arayış, əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir).*
*10. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
